**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SEYFƏDDİN SABİR oğlu SƏMƏNDƏROV**

# «XX ƏSRİN 20-30-cu İLLƏRİNDƏ AZƏRBAYCANDA İQTİSAD ELMİNİN VƏ İQTİSADİ FİKRİN İNKİŞAF İSTİQAMƏTLƏRİ»

**5307.01** –İqtisadi nəzəriyyə

İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı 2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun "İqtisadi nəzəriyyə və iqtisadi fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Əlican Pirican oğlu Babayev**

iqtisad elmləri doktoru, professor
**Əli Qulu oğlu Allahverdiyev**

iqtisad elmləri doktoru
**Gülənbər Arif qızı Əzizova**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universiteti**

Dissertasiyanın müdafiəsi «___» _________ 2016-cı il saat «___»-da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün D.02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az.1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

.
Avtoreferat «____» _______________ 2016-cı ildə göndərilmişdir.

D.02.051 Dissertasiya şurasının
elmi katibi, i.e.n., dos. **M.M.Sadıqov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı** XX əsrdə cəmiyyətimiz iki dəfə keçid dövrünü yaşamışdır. Birinci dəfə 20-30-cu illərdə kapitalizmdən sosializmə, çox ukladlı təsərrüfatçılıqdan monoukladlı təsərrüfatçılığa, xüsusi mülkiyyətin ləğv edilərək, ictimai və dövlət mülkiyyətinin bərqərar olunduğu bir cəmiyyətə keçid prosesi baş vermişdir. XX əsrin sonuncu on illiyində ikinci dəfə yenə də cəmiyyətimiz keçid dövrünü yaşamışdır. Bu dəfə 20-30-cu illərdə baş verən proseslərin bütün anlamlarda, siyasi, hüquqi və iqtisadi məzmunda tam əksinə olan proses baş vermişdir. Hər iki dövr ərzində müəyyən assimetrik bənzərliklər tapmaq olar. Nümunə üçün qeyd etmək olar ki, 20-30-cu illərdə xüsusi mülkiyyətin və mülkiyyətçinin taleyi həll edilirdisə, XX əsrin 90-cı illərində kollektiv mülkiyyətin saxlanılıb-saxlanılmamağı və ləğv edilməsinin müddəti və şərtlər ətrafında geniş elmi diskussiyalar olmuşdur.

XX əsrin 20-30-cu illərində iqtisadçılar keçid dövrünün nəzəri və praktiki məsələləri ilə əlaqədar dəyərləndirmələr apararaq müəyyən fikirlər irəli sürmüşdülər. Lakin çox təəssüf ki, iqtisadi ideya və fikirlər avtoritar siyasi iradəyə tabe edilərək həmin dövrə qədər tarixdə bənzəri olmayan eksperimentlər reallaşdırıldı. Müasir elmi ədəbiyyatlarda "Stalinizim siyasi –iqtisadi " deyilən anlayış formalaşmışdır. Bu anlayış tərəfdarları eyni zamanda sovet iqtisadi diktaturası və onun təbiətini izah edən nəzəri mühakimələr sistemi də formalaşdırmışlar. Qeyd etmək lazımdır ki, sovet dövründə rəsmi olaraq elmi və iqtisadi ədəbiyyatlarda mütərəqqi planlaşdırma modelinin bərqərar olduğu, planlı təsərrüfat sistemində böhranların, ziddiyyətlərin olmadığı, cəmiyyətin daima, yüksələn xətlə inkişaf etdiyi fikirlərinin əsaslandırılmasına çalışılırdı.

Lakin tarixi təcrübədə bütün bu iddiaların əsassızlığı ortaya çıxdı. Çünki sovet praktikasında XX əsrin 60-cı illərindən 80-ci illərə qədər durğunluq illəri, 80-90-cı illər sovet aqoniyası dövrü, sonrakı illər isə postsovet məkanında milli dövlətlərin, milli təsərrüfatların formalaşması dövrləri kimi diqqəti cəlb edir. Göründüyü kimi, sovet cəmiyyəti, müvafiq olaraq sovet iqtisad elmi və iqtisadi fikri müəyyən inkişaf mərhələlərindən keçmişdir. Bu tarixi mərhələlər XX əsrin 20-30-cu, 40-50-ci, 60-80-ci illəri kimi qeyd oluna bilər.

Sovet cəmiyyətinin və sovet elmi fikrinin yuxarıda göstərilən tarixi mərhələləri içərisində 20-30-cu illər formalaşma və təşəkkülü dövrü kimi mühüm yer tutur, 20-30-cu illərin iqtisadi fikir tarixi, iqtisadi tarix, nəzəri və sahə iqtisadiyyatı məsələlərin elə həmin dövrün özündə necə

gündəm də olması məsələlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu dövrdə sovet iqtisad elmi sisteminə 1) ümumi iqtisadiyyat elmləri, 2) iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə elmlər ( sənaye, kənd-təsərrüfatı, nəqliyyat, ticarət...), 3) iqtisadiyyatın idarə olunması üzrə elmlər, funksional elmlər daxil idi.

Daha bir əhəmiyyətli məsələ kimi qeyd olunmalıdır ki, iqtisad elmində və iqtisadi fikirdə istiqamətlər bir neçə aspektdən çıxış edərək müəyyənləşdirilə bilər. Burada dəyərləndirmələr fikir və ideya sahiblərinin 1) sosial mənşəyi, 2) milli mənsubiyyəti, 3) elmi araşdırma və mühakimələrində metodoloji yanaşmaları, 4) tədqiqat obyekti və predmeti əsasında aparıla bilər. Tədqiqat işində 20-30-cu illərdə Azərbaycanda iqtisad elmi və iqtisadi fikrin inkişaf istiqamətləri ideya sahiblərinin elmi araşdırma və mühakimələrində metodoloji yanaşmaları və həmçinin irəli sürülən mühakimələrinin məzmunca iqtisad elmləri sisteminin hansı qrupuna daxil olan sahələrə aid olmasına əsasən müəyyənləşdirilmişdir. Araşdırmaların qeyd edilən istiqamətlər üzrə aparılması müasir dövrdə xüsusi aktuallıq kəsb edir Baxmayaraq ki, hal hazırda Azərbaycan post keçid dövründədir, bununla belə keçid dövrünün müəyyən problemləri qalmaqdadır. Məhz bu baxımdan müasir dövrdə tarixi təcrübədən qaynaqlanan iqtisadi ideya və fikirlərin araşdırılması, xüsusən də 20-30-cu illərin tarixi-iqtisadi təcrübəsinin tədqiqi aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycan tarixi və iqtisadi ədəbiyyatlarında XX əsrin 20-30-cu illərinin tarixi-iqtisadi reallıqları ilə əlaqədar elmi araşdırma müəllifləri kimi respublikamızın görkəmli alimləri A.S.Sumbatzadə, İ.A.Hüseynov, M.A.Dadaşzadə, Z.İ.İbrahimov, A.N.Quliyev, E.A.Tokarjevski, M.S.Xələfov Z.M.Qasımov, A.Ş.Milman, Q.Y.Əbdülsəlimzadə, Ə.K.Dilbazov, Ə.A.Qəribov və b. adlarını çəkmək olar. Lakin yuxarıda adları çəkilən tədqiqatçılar bütünlükdə tədqiq edilən dövr ərzində Azərbaycan iqtisad elmi və iqtisadi fikrin inkişaf xüsusiyyətləri və istiqamətləri ilə əlaqədar elmi araşdırmalar aparmamışlar.

Rus və sovet iqtisadi ədəbiyyatlarında 20-30-cu illər kapitalizmdən sosializmə keçid dövrü kimi xarakterizə olunaraq keçid dövrünün inkişaf mərhələləri, eyni zamanda bir sıra nəzəri və praktiki məsələlər ətrafında baş verən diskussiyalarla əlaqədar məsələlərə daha çox yer verilmişdir.

L.İ.Abalkin, L.D.Şirokorad, N.İ.Bazılev, A.Q.Quznyayev, V.E.Maneviç, L.V. Zinçenko və b. tədqiqatları xüsusi olaraq diqqəti cəlb edir.

L.İ.Abalkinin “Sosializmin siyasi-iqtisadının metodoloji problemləri”, L.K.Şirokoradın “Sosializmin siyasi iqtisadının metodoloji problemləri keçid dövrünün sovet iqtisadi ədəbiyyatlarında”, N.İ.Bazılevin “SSRİ-də sosializmin iqtisadi nəzəriyyəsinin təşəkkülü”, A.Q.Quznyayevin “Sosializmin siyasi iqtisadının predmeti problemləri (nəzriyyə, tarix metodologiya)”, Zinçenkonun “SSRİ-nin ali məktəblərində sosializmin siyasi iqtisadının tədrisi tarixindən (40-cı illər)”, V.E.Maneviçin “20-ci illərdə iqtisadi diskussiyalar”əsərlərində 20-30-cu illərdə SSRİ-də iqtisadi fikrin inkişaf xüsusiyyətləri, siyasi-iqtisadın və iqtisadi nəzəriyyənin nəzəri müddəalarının təşəkkül tapması məsələləri ilə əlaqədar fikir müxtəlifliyi araşdırılmışdır. Sözügedən tədqiqatçılar öz mühakimələrini sovet iqtisadi məktəbinin dəyərləri əsasında irəli sürmüşlər. Aparılan tədqiqatlarda keçid dövrü tədqiqat obyekti kimi seçilərək dəyərləndirmələr edilmişdir.

Azərbaycan iqtisadi fikrində problemin tədqiqi ilə əlaqədar xeyli boşluqlar vardır. Bütün bunlar dissertasiya işinin yerinə yetirilməsinə qədər aparılan tədqiqatlara iki aspektdə yanaşmağa imkan yaradaraq tədqiqatların daha da dərinləşdirilməsini tələb edir. Birincisi həmin tədqiqat işləri Azərbaycan ictimai iqtisadi fikrinin sözügedən tədqiqatçıların elmi fəaliyyət göstərdikləri dövr üçün inkişaf səviyyəsi və istiqamətləri ilə əlaqədar araşdırmalar zamanı dəyərli mənbə kimi çıxış edir. İkincisi müasir dövrdə bir çox tarixi mənbələrə birbaşa çıxışın olmadığı halda belə həmin əsərlərdən araşdırılan dövrün iqtisadi, siyasi, mədəni və bir çox digər sahələri ilə əlaqədar dəyərli informasiya əldə etmək mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıda duran başlıca məqsəd XX əsrin 20-30-cu illərində sovet Azərbaycanında iqtisad elminin və iqtisadi fikrin inkişaf xüsusiyyətləri ilə əlaqədar elmi təhlillər aparılaraq dəyərləndirmələrin edilməsidir. Dissertasiya işində qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həll edilməsi nəzərdə tutulmuşdur:

– Azərbaycan iqtisad elminin və iqtisadi fikrinin inkişafına təsir edən ictimai-siyasi və iqtisadi faktorlar müəyyənləşdirilərək qiymətləndirilməsi;

– Tədqiq edilən dövrdə elm və təhsil mərkəzlərinin respublikada sovet iqtisad elmi və iqtisadi fikrinin təşəkkülü tapmasında rolunun araşdırılması;

– XX əsrin 20-30-cu illərində formalaşmaqda olan sovet iqtisad elminin və o cümlədən Azərbaycan iqtisad elmi və iqtisadi fikrinin özünəməxsus xüsusiyyətlərinin tədqiq olunması;

– Azərbaycanda xalq təsərrüfatının ayrı-ayrı sahələrinin (praktiki-funksional) funksional problemləri ilə əlaqədar dəyərləndirmələrin təhlil olunaraq qiymətləndirilməsi;

– Formalaşmaqda olan Azərbaycan sovet iqtisad elminin və iqtisadi fikrinin inkişaf istiqamətlərinin tədqiq olunması;

– Milli iqtisadi fikrin inkişafına neqativ təsir edən amillərin rolunun qiymətləndirilməsidir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti tədqiq edilən dövrdə iqtisad elmi və iqtisadi fikrin inkişaf xüsusiyyətləri, iqtisad elmi və iqtisadi fikrin inkişafına təsir edən amillər və başlıca inkişaf istiqamətləridir. Elmi müşahidələrin predmeti isə XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-in elmi tədqiqat institutlarında, ali məktəblərində və təsərrüfat orqanlarında fəaliyyət göstərən iqtisadçıların, partiya və təsərrüfat orqanları liderlərinin iqtisadi fikirləri, dəyərləndirmələri, həmin fikirlərin ideya məzmunu, elmi və təsərrüfat əhəmiyyətinin qiymətləndirilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin və Nazirlər Kabinetinin qərarları, iqtisadi fikir tarixi klassiklərinin, respublika və xarici ölkə iqtisadçılarının iqtisadi ideya və fikirləri və s. təşkil edir. Elmi araşdırmalar zamanı bütünlükdə ictimai elmlərə xas olan ümumi metodlardan və eyni zamanda anacaq sırf tədqiqat sferası və obyekti üçün xarakterik olan spesifik metodlardan istifadə olunmuşdur. Sözügedən metodlar qismində analiz, sintez, induksiya, deduksiya, müqayisə və bütün bu metodlar vasitəsi ilə əldə edilən elmi informasiyanın təqdim edilməsi üçün narrativ üsullardan geniş istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** XX əsrin 20-30-cu illərinə aid arxiv sənəd və materialları, həmin dövrdə nəşr edilən dövrü mətbuat nümunələri, qəzet və jurnal materialları, iqtisadçıların, təsərrüfat və partiya orqanları liderlərinin nəşr olunmuş əsərləri, məqalələri, çıxışları və s. təşkil edir.

Elmi araşdırmalar aparılarkən XX əsrin 20-30-cu illərində nəşr edilən elmi və dövrü mətbuat materiallarından geniş istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, tədqiq edilən illər ərzində respublikada nəşr

edilən "SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının Xəbərləri", «Азербайджанский настолъный календар 1924-1925», «Азербайджанское нефтяное хозяйство» (орган Центрального Управления Азербайджанской Нефтяной Промышленности», «Бакинский рабочий», «Экономический Вестник Азербайджана», «Известия Азербайджанского Краснознаменного Индустриалъного Института им. Азизбекова», «Известия общества обследования и изучения Азербайджана», издание общества обследования и изучения Азербайджана», «Сборник статей Азербайджанского Селского-Хозяйственного Института», «Известия Азербайджанского Политехнического Института имени Азизбекова» və bir sıra digər elmi və dövrü mətbuat orqanlarının nəşr edilmiş materiallarından mənbə kimi istifadə olunmuşdur.

Araşdırmalar zamanı 20-30-cu illərə dair iqtisadi gerçəklikləri özündə əks etdirən bir çox tarix materiallara müraciət olunmuşdur. Bütünlükdə elmi tədqiqat və müşahidələrin mənbə və informasiya bazası kimi aşağıdakıları müəyyənləşdirmək olar: 1)Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra xarici ölkələrə mühacirət etmiş ictimai-siyasi xadimlərin əsərləri, 2) xarici ölkə tarixçilərinin əsərləri, 3) Azərbaycan Kommunist Partiyası və Sovet hökuməti rəhbərlərinin əsərləri və məruzələri, 4) Azərbaycan Kommunist Partiyasının qurultaylarının, konfranslarının, Mərkəzi Komitə plenumlarının materialları, 5) Azərbaycan Respublikası alimlərinin və siyasi xadimlərinin əsərləri, 6) biblioqrafik və statistik kitablar, 7) arxiv sənədləri və materialları, 8) dövrü mətbuat materialları.

**İşin elmi yeniliyi**.

– Azərbaycan iqtisadi fikrində və o cümlədən iqtisadi tarix problemlərinin araşdırılması sahəsində ilk dəfədir ki, tədqiq edilən dövr ərzində iqtisad elminin və iqtisadi fikrin inkişafına təsir edən siyasi, ictimai və iqtisadi amillər və o cümlədən bir sıra faktorlar kompleks surətdə təhlil edilərək qiymətləndirilir;

– 20-30-cu illər bütün sovet məkanında olduğu kimi Azərbaycanda sosializmə keçid dövrü, spesifik transformasiya dövrü kimi xarakterizə olunaraq keçid dövründə mövcud konsepsiyalar nəzərdən keçirilərək qiymətləndirilir;

– Azərbaycanda iqtisad elminin və iqtisadi fikrin inkişafında rol oynayan elm və təhsil mərkəzləri ilə əlaqədar ciddi araşdırmalar və qiymətləndirmələr aparılır;

– İlk dəfədir ki, formalaşmaqda olan Azərbaycan sovet iqtisad elminin və iqtisadi fikrinin özünəməxsus cəhətləri dəyərləndirilir;

– 20-30-cu illərdə iqtisadiyyatın nəzəri-funksional problemləri ətrafında vüsətlənən diskussiyalar təhlil edilir;

– Azərbaycanda xalq təsərrüfatının ənənəvi və qeyri ənənəvi sahələrinin inkişaf perspektivləri ilə əlaqədar həmin dövrdə səslənən fikirlər araşdırılır;

– Tədqiq edilən illərdə Azərbaycanda sovet iqtisad elmi və iqtisadi fikrinin inkişaf istiqamətləri tədqiq olunur;

– Milli iqtisadi fikrin ayrı-ayrı elementlərinin təzahür nümunələri və inkişafına təsir edən neqativ amillər dəyərləndirilir.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Dissertasiya işinin əsas müddəaları Azərbaycan Respublikasının bir sıra ali məktəblərində, iqtisadi tarix, iqtisadi fikir tarixi kurslarının mühazirələrində istifadə edilmək üçün qəbul olunmuşdur. Eyni zamanda 20-30-cu illərdə xalq təsərrüfatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi, bir çox resursların istifadə olunması ilə əlaqədar irəli sürülən təkliflər bir daha nəzərdən keçirilərək müasir texnika və texnologiyalar, innovasiyaların tətbiqi ilə reallaşdırıla bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları bir sıra konfrans və seminarlarda məruzə edilərək müzakirə edilmişdir. Bunlardan:

«Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri » mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları məqalələr və tezislər» (Bakı 2009); «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» (Bakı 2010); «İnnovasiyalı inkişafın Sosial-iqtisadi problemləri» mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, (Bakı, 27-29 oktyabr, 2010-cu il); «Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı», Beynəlxalq Elmi-praktiki konfransın materialları, 31 mart 2011, (Bakı, AMEA Elmi İnovasiyalar Mərkəzi, 2011); «Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində mövzusunda Beynəlxalq Elmi-Praktik konfransın materialları», ( Bakı, 2011); «Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları və tezisləri», (Bakı 2011); «Экономический рост республики Беларусь: Глобализация, инновационность, устойчивость», Материалы VI Международный научно-практической конференции», (Минск 2013); «Экономика, Социология и право в современном мире:

проблемы и поиски решений», статьи и тезисы докладов 16-й Международный научно-практической конференции, (Пятигорск, 2013 г); «Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş "Azərbaycan iqtisadiyyatının aktual problemləri" mövzusunda elmi-praktiki konfransın meterialları», (Bakı, 2013).

**Tədqiqatın nəticələrinin çap edilməsi və işıqlandırılması**. Dissertasiyanın nəticələri 47 elmi işdə öz əksini tapmışdır. O cümlədən həmin əsərlər 2 monoqrafiya, 8 xarici ölkələrdə nəşr olunmuş elmi məqalə və 2-si tezis, respublikanın elmi jurnal və məcmuələrində 35 məqalə və tezislər nəşr olunmuşdur.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya işi giriş, 5 fəsil, 5 cədvəl, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla 329 səhifədən ibarətdir.

## Dissertasiya işinin mündəricatı

**Giriş**

**I FƏSIL. XX əsrin 20-30-cu illərində Azərbaycanda sovet iqtisad elminin tədqiqi və tədrisi mərkəzlərinin təşəkkülü**

1.1. 20-30-cu illərdə elmi tədqiqat institutları, cəmiyyətləri və mərkəzlərinin iqtisad elminin inkişafına təsiri

1.2. Ali və orta ixtisas təhsili məktəblərinin iqtisad elminin inkişafında rolu

**II FƏSIL. Sovet iqtisad elminin nəzəri-metodoloji dəyərlərinin Azərbaycan iqtisadi fikrində mənimsənilməsi xüsusiyyətləri**

2.1. Sovet iqtisad elmində metodoloji yanaşmalarda əsas istiqamət və təmayüllər

2.2. 20-30-cu illərdə iqtisad elminin ümumi nəzəri- metodoloji problemlərinin *(iqtisad elmləriinin təsnifatı və predmeti)* iqtisadi fikirdə əksi

**III FƏSIL. 20-30-cu illərdə kapitalizmdən sosializmə keçidlə əlaqədar formalaşan iqtisadi yanaşmalar**

**3.1.** Kapitalizmdən sosializmə keçid problemi iqtisadi ədəbiyyatlarda

**3.2.** Sovet iqtisadi fikrində iqtisadi inkişafın nəzəri-konseptual problemləri ətrafında diskussiyalar

3.3. Sosialist iqtisadi sistemində sosial problemlərin nəzəri və praktiki aspektləri ilə əlaqədar mühakimələr

**IV FƏSIL. Azərbaycanın əsas iqtisadi sektorlarının inkişaf istiqamətləri ilə əlaqədar iqtisadi ədəbiyyatlarda dəyərləndirmələr**

4.1. Neft sənayesi və xalq təsərrüfatının digər sahələrinin iqtisadi problemləri ilə əlaqədar mühakimələr

4.2.Energetikanın inkişaf etdirilməsi məsələləri iqtisadi ədəbiyyatlarda

4.3. Kənd təsərrüfatının inkişaf etdirilməsi ilə əlaqədar mühakimələr

4.4. Nəqliyyat infrastrukturu və ticarət-iqtisadi əlaqələri ilə bağlı dəyərləndirmələr

**V FƏSIL. XX əsrin 20-30-cu illərində Azərbaycan milli iqtisadi fikrin inkişafında neqativ təzahürlər**

5.1. Azərbaycanın elm və təhsil mərkəzləri repressiv təzyiqlər altında

5.2. Azərbaycan ictimai-iqtisadi təfəkkürün inkişafında xüsusi rolu olan repressiyaya məruz qalmış mütəxəssis və alimlər

5.3. Sovet Azərbaycanında ictimai–iqtisadi təfəkkürün sosialist ideologiyasının, iqtisadi determinizminin təsiri altında formalaşması xüsusiyyətləri

**Nəticə**

**Ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN DİSSERTASİYA İŞİNİN ƏSAS ELMİ MÜDDƏALARI

**1. XX əsrin 20-30-cu illərində Azərbaycanda iqtisadi elmi tədqiqat və tədris mərkəzlərinin təşəkkülü prosesi araşdırılmışdır**

Dissertasiya işində "XX əsrin 20-30-cu illərində Azərbaycanda iqtisadçı kadrların hazırlanması, iqtisad elmi və iqtisadi fikrin inkişafında rol oynayan elm və təhsil mərkəzlərinin təşəkkülü" prosesi araşdırılmışdır. Tədqiq edilən dövrdə bir tərəfdən ziyalı və alimlərin repressiya olunması, digər tərəfdən isə təhsilin müxtəlif pillələri (ali, orta) üzrə, mütəxəssis hazırlığının bir qədər vüsətlənməsi ilk baxışdan dövrün ən böyük paradokslarından biri kimi qəbul oluna bilər. Lakin sovet iqtisadi doktrinasının reallaşdırılması milli ucqarlarda da kadr hazırlığına ciddi fikir verilməsini tələb edirdi. Dissertasiya işində öncə ali və orta təhsil məktəblərinin iqtisadçı kadrların hazırlanması, iqtisad elminin və iqtisadi fikrin inkişafında rolu məsələsinə aydınlıq gətirilərək

müəyyən olunmuşdur ki, 20-ci illərdə hazırlanan iqtisadçılar içərisində cəmi 44 nəfər azərbaycanlı var idi. Bu da bütün iqtisadçı mütəxəssislərin 12,9%-ini təşkil edirdi. Ümumiyyətlə Azərbaycan SSR-in ali məktəblərində 1922-1927-illərdə 339 nəfər yüksək ixtisaslı iqtisadçılar hazırlanmışdır. Müvafiq olaraq 1922/23-cü tədris ilində 3 nəfər, 1923/24-cü ildə 5 nəfər, 1924/25-ci ildə 7 nəfər, 1925/26-cı ildə 33 nəfər, 1926/27-ci ildə 291 nəfər yüksək ixtisaslı iqtisadçı kadrlar hazırlanmışdı [1].

Sonrakı illərdə yəni, 1927/28-ci tədris ilində Respublikanın 3 ali məktəblərində 4500 nəfər tələbə təhsil alırdı. Bunlardan ancaq 373 nəfəri iqtisad elmləri üzrə təhsil alan tələbələr idi. 1928-ci ilə kimi bütünlükdə respublikada 1870 nəfər ali təhsilli mütəxəssis hazırlanmış, bunlardan 315 nəfəri iqtisad elmləri üzrə mütəxəssislər idi. Yəni bu göstərici bütün mütəxəssislərin 16,3 %-i demək idi.

1931-ci ildə respublikada ali məktəblərin sayı 12-yə çatmış, orada 7146 nəfər təhsil alırdı. 1940-cı ildə respublikanın bütün ali təhsil məktəblərində 12.530 nəfər oxuyurdu. 1933-cü ildə respublikanın ali məktəblərindən 1007 nəfər, 1941-ci ildə 2543 nəfər məzun olmuşdu. 1940/41-ci tədris ilində müxtəlif ixtisaslar üzrə məzunlar aşağıdakı kimi idi. 2543 məzunun 558 nəfəri sənaye və nəqliyyat, 442 nəfəri kənd-təsərrüfatı, 507 nəfəri səhiyyə, idman, 910 nəfəri maarif, 8 nəfəri incəsənət, 138 nəfəri iqtisad və hüquq ixtisasları üzrə məzun olmuşdular. Qeyd etmək lazımdır ki, 1941-ci ildə xalq təsərrüfatında məşğul olan ali təhsilli mütəxəssislər bütün ixtisaslı kadrların 20,1%-ni təşkil edirdi. Burada mühəndislər 6,5%, kənd-təsərrüfatı mütəxəssisləri 1,2%, tibb işçiləri 3,1%, iqtisadçı, mədəni-maarif ixtisasları üzrə mütəxəssislər xalq təsərrüfatında məşğul olan bütün ali təhsilli mütəxəssislərin 9,3% təşkil edirdi[2] .

Rəqəmlərdən də göründüyü kimi, hər il məhdud sayda ali təhsilli iqtisadçı kadrlar hazırlanırdı və bu mütəxəssislərin çox az hissəsi azərbaycanlılar idi.

Respublikada milli iqtisadçı kadrların hazırlanmasında nisbi irəliləyişlər ancaq 30-cu illərin ikinci yarısından müşahidə olundu.

---

[1] Qəribov Ə.A. İyirminci illərdə Sovet Azərbaycanında iqtisadçı kadrların hazırlanması və iqtisad elminin inkişafında rus alimlərinin rolu // "Azərbaycan SSR EA-sının Xəbərləri, İqtisadiyyat, 1974, №1, s.33-34

[2] Quliyev Y.B. , Quliyev T.Ə. Ali təhsilin iqtisadiyyatı . Bakı: 1975, s.34-39

Kadr hazırlığı Azərbaycan SSR Dövlət Plan Komissiyası sistemində, respublikanın ali təhsil məktəblərində planlaşdırma, sovet ticarəti, maliyyə, xalq təsərrüfatı uçotu sahələri üzrə həyata keçirilirdi (Cədvəl №1).

Cədvəl № 1

30-cu illərdə respublikada iqtisadçı kadrların hazırlığı dinamikası

| İllər | Cəmi kadrlar | Azərbaycanlılar |
|---|---|---|
| 1933 | - | - |
| 1934 | 92 | 38 |
| 1935 | 90 | 47 |
| 1936 | 267 | 138 |
| 1937 | 62 | 32 |
| 1938 | 121 | 65 |
| 1939 | 170 | 100 |

**Mənbə:** Qəribov Ə.A. Azərbaycan SSR-də iqtisadçı kadrların hazırlanması (1930-1940-cı illər) // "Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri", iqtisadiyyat, 1987, №1, s.42

Konkret olaraq tədqiq edilən dövr ərzində respublikada iqtisadçı kadrların hazırlanması və iqtisadi biliklərin yayılmasında, həmçinin iqtisadi problemlərə həsr olunmuş elmi tədqiqatların aparılmasında mühüm rol oynayan ali məktəblər qismində 1922-ci ildə Azərbaycan Dövlət Universiteti tərkibində yaradılan iqtisad bölməsini, 1930-cu ildə sözügedən Universitetin hüquq fakültəsinin inzibati-təşkilat şöbəsi bazasında yaradılmış iqtisad fakültəsini, Ali Pedaqoji İnstitutun tərkibində 1932-ci ildə yaradılmış ictimai-iqtisad şöbəsini, Azərbaycan Politexnik İnstitutunda tərkibində 1920-ci ildə yaradılmış fakültələrdən biri kimi iqtisadiyyat fakültəsini (1920-1927-ci illərə qədər mövcud olmuş), 1930-cu ildə Azərbaycan Politexnik İnstitutunun Azərbaycan Neft İnstitutuna çevrilməsindən sonra sözügedən institutun tərkibindəki

sənaye (mühəndis) iqtisad fakültəsini, 1929-cu ildə yaradılmış Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tərkibindəki iqtisadiyyat fakültəsini, 30-cu illərdə yaradılmış, Ticarət Kooperativ, Maliyyə və İstehlak Kooperasiyası İnstitutlarını, Azərbaycan Dövlət Plan İqtisad İnstitutunu, nəhayət 1936-cı ildə respublikada fəaliyyət göstərən iqtisadi təmayüllü institutların bazasında yaradılmış Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu göstərmək olar. Dissertasiyada ilk dəfə olaraq yuxarıda adları qeyd edilən ali təhsil məktəblərində iqtisadçı kadrların hazırlanması, iqtisadi fənlərin tədrisi və iqtisadi araşdırılmalar istiqamətlərində görülmüş işlər təhlil edilərək dəyərləndirilmişdir.

Dissertasiya işində texnikum və tədris kurslarında da həyata keçirilən iqtisadçı kadrların hazırlanması prosesi də tədqiq olunmuşdur. Araşdırmalar zamanı Bakı Sənaye-İqtisad texnikumu, Nuxa İqtisad Texnikumu, 1923-cü ildə Azərbaycan SSR Xalq Komissarı Sovetinin sədri Q.Musabəyovun təşəbbüsü ilə Bakıda təşkil edilən 1) kooperativ və 2) maliyyə-büdcə şöbələrindən ibarət, mühasib və ticarətçi (kommersant) hazırlayan daimi illik kurslar və s. fəaliyyəti təhlil edilərək qiymətləndirilmişdir.

20-30-cu illərdə respublikada həyata keçirilən iqtisadçı kadrların hazırlanması prosesinin başlıca xüsusiyyətləri kimi aşağıdakılar göstərilə bilər:

- kadr hazırlığında əsas diqqət planlı iqtisadiyyatın tələblərinin təmin olunmasına yönəldilmişdi;
- sahə iqtisadiyyatının ayrı-ayrı sahələrinin planlaşdırılması ilə məşğul olacaq mütəxəssislərin hazırlanmasına mühüm yer verilirdi;
- sovet təhsilinin müxtəlif pillələri üzrə mühasibat uçotu, maliyyə və ticarət sahələrində çalışacaq mütəxəssislər hazırlanırdı *(Bax.cədvəl №2).*

Ali və orta ixtisas məktəblərində siyasi iqtisad, iqtisadi təlimlər tarixi, xalq təsərrüfatı tarixi ilə əlaqədar fənlər tədris olunsa da, ancaq 30-cu illərin sonlarına doğru respublikada fikir tarixi və xüsusən də ictimai fikir tarixi üzrə yüksək ixtisaslı kadrlar hazırlandı.

Tədqiqat işində həmçinin XX əsrin 20-30-cu illərində Azərbaycanda elmi araşdırmaların aparıldığı mühüm elmi mərkəzlərin fəaliyyəti tədqiq edilmişdir.

Cədvəl №2

20-30-cu illərdə iqtisadçı kadrların hazırlığında əsas ixtisaslar

| | |
|---|---|
| **Ali təhsil məktəblərində** | iqtisadçı-mühəndis; neft sənayesi iqtisadiyyatı; sənayenin planlaşdırılması; kənd-təsərrüfatının planlaşdırılması; şəhər təsərrüfatının planlaşdırılması; xalq təsərrüfatı uçotu ( plan-iqtisadçı, iqtisadçı-statistiklər); kənd təsərrüfatı iqtisadiyyatı (xüsusi bitkilərin becərilməsi üzrə iqtisadçılar; bağçılıq və bostançılıq üzrə iqtisadçılar; iqtisadçı heyvandarlar; kənd təsərrüfatının mexanikləşdirilməsi üzrə iqtisadçılar); maliyyə (büdcə-maliyyə işçiləri, kredit müəssisələri üçün maliyyə-bank işçiləri |
| **Texnikum və peşə hazırlığı kurslarında** | - mühasib, hesabdar, statistika, iqtisadçı-statistik, plan-statistikası, sənaye-iqtisad, planlaşdırma, sovet ticarəti, maliyyə-iqtisad, kredit-iqtisad, xalq təsərrüfatı uçotu |

Mənbə: «Kommunist», №181, 1932; «Бакинский рабочий», №155, 1931

Dissertasiya işində ilk dəfə olaraq 1923-cü ildə yaradılmış "Azərbaycanı Tədqiq edən və Öyrənən Cəmiyyətin tərkibində İqtisadiyyat seksiyasının və sənaye, kəndə təsərrüfatı, maliyyə, ticarət-kooperativ, demoqrafiya, inşaat-tikinti, tarixi-iqtisadiyyat, köçərilərin öyrənilməsi komissiyalarının əməkdaşlarının Azərbaycan iqtisadiyyatının tarixi, ayrı-ayrı sahələrinin problemlərinin tədqiqinə həsr olunmuş araşdırmaları dəyərləndirilmişdir[3]. Cəmiyyətin tərkibində 1923-1929-cu illərdə iqtisadçı alimlər F.Ordubadskı, İ.Sviridov, A.S.İbrahimov, A.N.Bukreyev, İ.F.Blinov, A.Ələkbərov, A.Fərəczadə, İ.M.Datiyev, İ.Makarovski, P.Laktionov, D.Kazımov, A.Şahbazov, S.Vəzirov, Qulam Sultanov, M.Avdeyev, M.Mixelson, H.Dadaşov, Çilingərov, Zire, Mehmandarov, İbrahimov və b. iqtisadi tədqiqatlar aparırdılar.

---

[3] «Известия общества обследования и изучения Азербайджана», издание общества обследования и изучения Азербайджана». Баку: 1925, №1, с.110-136

1929-cu ildə oktyabrın 29-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi "Azərbaycanı Öyrənən və Tədqiq edən Cəmiyyətin" Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna (AzDETİ) çevrilməsi haqqında qərar qəbul etdi[4]. Cəmiyyətin bütün vəsaitləri, kitabxanası, nəşriyyatı Az.DETİ-na verildi. Az.DETİ-nin tərkibində marksistlərin elmi-tədqiqat assosiasiyası, Azərbaycanda sinfi mübarizəni tədqiq edən institutu da fəaliyyət göstərirdi.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində fəaliyyət göstərən Az.DETİ Azərbaycan Respublikasında mövcud bütün elmi idarə və təşkilatların fəaliyyətini birləşdirərək iki hissədə təşkil olunmuş Təbiət və İctimai elmlər şöbələrindən ibarət idi. Sözügedən hissələr eyni zamanda ayrı-ayrı elmlər üzrə kafedralara bölünmüşdü[5]. Buraya 1) təbiət elmləri, 2) iqtisadiyyat, 3) tarix –etnoqrafiya, 4) dilçilik, 5) ədəbiyyat və incəsənət, 6) fəlsəfə, 7) sovet və xarici ölkələrin şərqşünaslığı, 8) dövlət, hüquq və sovet quruculuğu kafedraları daxil idi. İqtisadi məzmunlu elmi araşdırmalar iqtisadiyyat şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilirdi və mütəmadi olaraq əsərləri nəşr olunurdu. Elmi araşdırmalar B.Həsənbəyov, İ.Sofroniviç, Səncabi, Mirheydərov, Petruşevski, Serov, A.V.Mayk, V.Denis və b. tərəfindən aparılırdı. İqtisadiyyat şöbəsinə pambıqçılıq, neft və toxuculuq sənayesinin problemləri ilə əlaqədar araşdırmaların nəticələrinin dərc etdirilməsi ilə əlaqədar tapşırıqlar verilmişdi[6].

Daha sonra dissertasiya işində Elmlər Akademiyası müəssisələrində aparılan iqtisadi araşdırmaların respublikada iqtisad elmi və iqtisadi fikrin inkişafındakı rolu məsələsi işıqlandırılmışdır.

1932-ci ildə dekabrın 29-dakı hökumət fərmanına əsasən Azərbaycan MİK–in qərarı ilə Az.DETİ-nin və Azərbaycanda Təbii-Məhsuldar Qüvvələrin Öyrənilməsi İnstitutu bazasında SSRİ EA Zaqafqaziya filialının Azərbaycan Şöbəsi təşkil edildi. Sözügedən fərman AzMİK-in sədri S.M.Əfəndiyev, katib F.Haciyeva tərəfindən imzalanmışdır.

---

[4] Халилов З.И. Академия Наук Азербайджанской ССР 20 . Баку:1966, с. 30

[5] " Kommunist", 1929, №173

[6] Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycanda Elmi İrsin Toplanılması və Sistemləşdirilməsi Şöbəsi, fond, 2, siyahı 2, saxlama vahidi 21, qutu 13, v.1-6, v.34

Qeyd etmək lazımdır ki, 3 il fəaliyyət göstərən və sektorlardan (11 sektor) ibarət EAZFAŞ-ın əməkdaşları respublikanın məhsuldar qüvvələrinin öyrənilməsi ilə əlaqədar, təbiət, texnika və ictimai elmlərin mühüm problemlərinə dair xeyli elmi tədqiqat işləri yerinə yetirmişdilər. EAZFAŞ-ın tərkibində 1) geologiya, 2) torpaqşünaslıq, 3) fizika, 4) kimya, 5) zoologiya, 6) botanika, 7) tətbiqi kimya, 8) energetika, 9) tarix, 10) ədəbiyyat sektorları, eyni zamanda biblioqrafiya, ekspedisiya, elmin təbliği və məşvərət komissiyaları və nəşriyyat yaradılmışdı[7] .

1935-ci ilin oktyabrında EAZFAŞ –ın bazasında SSRİ EA-nın Azərbaycan filialı təşkil edildi. Dissertasiya işində hələ 1935-ci ildə SSRİ EA-nın Azərbaycan filialının tərkibində yaradılan "İqtisadiyyat və coğrafiya" sektorunun, 1938-ci ilin aprelindən ayrıca fəaliyyət göstərən "Coğrafiya sektorunun, 1938-ci ilin fevralından elmi araşdırmaların aparıldığı "İqtisadiyyat" sektorunun əməkdaşlarının elmi fəaliyyətlərinin respublikada iqsad elmi və iqtisadi fikrinin inkişafında rolu qiymətləndirilmişdir.

İlk dəfə olaraq İqtisadiyyat sektorunun tərkibində B.C. Həsənbəyovun, M.B.Brjezitski və H.Dadaşovun və b. elmi araşdırmaları dissertasiya işində təhlil edilərək qiymətləndirilmiş, eyni zamanda elmi kadrların, aspirantların hazırlanması məsələsinə də diqqət yetirilmişdir. Araşdırmalar zamanı məlum olmuşdur ki, 1929-cu ilin oktyabrında Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunda maddi mədəniyyət və aspirantura sektoru yaradıldı. Sektorun fəlsəfə, siyasi-iqtisad, dilçilik və ədəbiyyat bölmələri var idi və ilk aspirantlar bu ixtisaslar üzrə qəbul edilmişdi. Sonrakı illərdə digər ixtisaslar üzrə də kadr hazırlığına başlanılmışdı. Məsələn nümunə üçün qeyd etmək olar ki, AzDETİ-nun etnoqrafiya bölməsinin 1930-cu ilin fevralında 5 nəfər, 1931-ci ildə isə 8 nəfər aspirant etnoqrafı var idi. AzDETİ-nin aspiranturasından 1931-ci ildə 34 nəfər, 1932-ci ildə 35 nəfər mütəxəssis məzun olmuşdu. Onlardan 17 nəfəri tarixçi, 16 nəfəri iqtisadçı, 9 nəfəri filosof, 1 nəfəri pedaqoq olmuşdur. Məzunların 39 nəfəri azərbaycanlı idi[8].

Aparılmış elmi müşahidələr son nəticədə belə qənaətə gəlməyə əsas verir ki, 20-30-cu illərdə Azərbaycanı Tədqiq edən və Öyrənən Cəmiyyət, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu, SSRİ Elmlər

---

[7] Халилов З.И. Академия Наук Азербайджанской ССР 20 . Баку: 1966, с. 32

[8] «Бакинский рабочий», 1932, №132

Akademiyasının Azərbaycan filialı digər elm sahələrinin problemləri ilə yanaşı iqtisadi məzmunlu elmi araşdırmaların da aparıldığı mühüm elmi tədqiqat mərkəziləri idi. Həmin elmi mərkəzlər respublikada iqtisad elminin və iqtisadi fikrin inkişafında çox böyük rol oynamışdır.

Elmi araşdırmalar zamanı müəyyən edilən digər maraqlı fakt 30-cu illərin sonlarına doğru SSRİ EA-nın Azərbaycan filialında iqtisadi məzmun daşıyan araşdırmalar iqtisadiyyat sektoru ilə yanaşı digər sektor və institutlarda da aparılmasının müəyyən edilməsidir. Elmi araşdırmalarda xalq təsərrüfatının ayrı-ayrı sahələrinin problemləri ilə yanaşı, nəzəri məsələlərin tədqiqinə də yer verilirdi. Bütün bunların isə öz növbəsində Azərbaycan sovet ictimai-iqtisadi fikrinin inkişafında mühüm əhəmiyyəti var idi.

**2. Sovet iqtisad elminin nəzəri metodoloji dəyərlərinin Azərbaycan iqtisadi fikrində mənimsənilməsi xüsusiyyətləri tədqiq olunmuşdur.**

Tədqiqatlar zamanı 20-30-cu illərdə özünün təşəkkülü prosesində olan sovet iqtisadi fikrinin əsas inkişaf istiqamət və təmayülləri, iqtisadiyyatın nəzəri-funksional problemləri ilə əlaqədar səslənən fikirlər dəyərləndirilmişdir.

20-30-cu illərdə formalaşmaqda olan sovet iqtisadi fikrində 1) mexanist, 2) idealist, 3) dialektik materializm metodologiyası əsasında formalaşan ortodoks nəzəri istiqamətlər xüsusi olaraq diqqəti cəlb etdi (şəkil №1 ). Metodoloji yanaşmalarda adı çəkilən istiqamətlərin yaranması keçid dövrünün inkişafındakı təmayül və ziddiyyətlərlə əlaqələndirilir. İstiqamətlər arasındakı fikir və ideya fərqləri əsasən məhsuldar qüvvələr və istehsal münasibətlərinin inkişaf dialektikasının mahiyyətinin izahında özünü daha qabarıq büruzə verirdi.

Sovet iqtisadi fikrində mexanist istiqamətin qneseoloji kökləri XX əsrin əvvəllərində formalaşmağa başlamış rus ictimai-siyasi fikrinin mexanist istiqamətinə gedib çıxır və nəzəriyyənin banisi A.Boqdanov hesab edilir.

20-ci illərdə Boqdanovun müddəaları N.Buxarin tərəfindən qəbul olundu və 20-ci illərin diskussiyalarında əsas istiqamətlərindən biri kimi formalaşan mexaniki istiqamətə N.Buxarin rəhbərlik edirdi. O, “Keçid dövrünün iqtisadiyyatı“ əsərində A.A.Boqdanov metodologiyasının tərəfdarı olduğunu bəyan etdi.

Dissertasiya işində N.Buxarinin müddəaları ətrafında səslənən S.Bessonov, A.Kon, E.Kafova, E.Preobrajenskinin fikirləri təhlil edilərək qiymətləndirilir. Mexanistlərin diqqəti cəlb edən

mühakimələri içərisində kapitalizmin süqutu və sosializmə keçidin avtomatik olaraq, istehsal münasibətlərindən təcrid olunmuş halda, istehsal qüvvələrinin inkişafı və bunun ictimai inkişaf prosesinə təsiri nəticəsində baş verəcəyi fikri dəyərləndirilir .

Araşdırmalar zamanı məlum olmuşdur ki, Azərbaycanda 1933-cü ildə dövrü mətbuatda mexanist istiqamətin nümayəndəsi kimi F.Rzabəyli təqdim edilmişdir. F.Rzabəyli "Bioloji" dərsliyinin müəllifi idi və bu dərslik ali və orta təhsil məktəblərində müəllimlərin stolüstü kitabı idi.

Dərslikdə Rzabəyli yazırdı ki, canlı və cansız aləm arasında yalnız kəmiyyət fərqləri mövcuddur. Orqanizm və maşınlar hissələrdən ibarətdir və bütün hissələr vəhdət halında fəaliyyət göstərir. Professor F.Rzabəyli canlı varlıqların həyat mübarizəsindən danışarkən Q.V.Plexanov və digər rus mütəfəkkirlərinin fikir və mülahizələrinə uyğun dəyərləndirmələr etmişdir. Əgər F.Engels insanın əmək vasitəsi ilə insan olduğunu iddia edirdisə, F.Rzabəyli hesab edirdi ki, əmək alətləri insan tərəfindən yaradılıb və insanın özünün oxşarıdır.

Şəkil № 1

20-30-cu illərdə sovet iqtisadi fikrində metodoloji yanaşmalarda əsas istiqamətlər




**Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur**

F.Rzabəylinin fikirləri ilə əlaqədar tənqidi materiallar da dərc olunmaqda idi. H.Fərzəlibəyov 1933-cü ildə iyunun 22-də "Kommunist" qəzetində "Biolojidəki mexanizm metodologiyası əleyhinə" məqaləsində professor F.Rzabəylininmühakimələrində mexanist baxışlara məxsus elementlərin olduğunu iddia edirdi[9] .

20-30-cu illərdə metodoloji yanaşmalara görə iqtisadi nəzəriyyədə digər istiqamət idealizm hesab olunur. İqtisadiyyat elmində idealist istiqamət 20-ci illərdə İ.Rubin tərəfindən "Marksın dəyər nəzəriyyəsinə dair oçerklər" əsərinin nəşrindən sonra özünü büruzə verdi. Mexanistlərdən fərqli olaraq İ.Rubin istehsal münasibətlərinin sosial formasını qəbul etməklə yanaşı, burada istehsal münasibətləri və istehsal qüvvələrini bir-birindən təcrid edilmiş halda mövcud olmasını əsaslandırmağa çalışırdı. İdealistlər də mexanistlər kimi məhsuldar qüvvələri texnika ilə eyniləşdirirdilər. Burada əsas fikir ayrılıqları istehsal münasibətlərinin məzmunun şərhində və istehsal münasibətləri və istehsal qüvvələri arasındakı nisbətlərin qavranılmasında özünü büruzə verirdi.

20-ci illərdə İ.Rubinin idealist mühakimələrini Q.Deborin, A.Çernin, A.Qreblis, İ.Kuşin, İ.Davıdov dəstəkləyirdilər[10] .

Dissertasiya işində ilk dəfə olaraq Azərbaycanda idealist istiqamətin tərəfdarı kimi Mehmed-Zəkinin fikirləri təhlil edilərək qiymətləndirilir. Mehmed Zəkinin "Maarif İşçisi" jurnalında dərc edilən məqaləsindəki fikirləri 1927-ci ildə avqustun 31-də «Бакинский рабочий» qəzetində "İctimai elmlərdən səhifələr" adı altında nəşr olunan digər məqalədə mexanist mövqeyindən tənqid olunurdu. Burada yazılırdı ki, əgər Mehmed-Zəki "tarixi materializm nəzəriyyəsini" oxusaydı onda bilərdi ki, elm, din, incəsənət - marksist düşüncəsində üstqurum adlanan, bazis üzərində bərqərar olur. Bazisi istehsal qüvvələri və ictimai-sinfi münasibətlər müəyyənləşdirir. Başlanğıc şüurda, ruhda deyil, materiyadadır. Mehmed Zəkiyə görə dünyanın müəmmalı, sirli qüvvə idarə edir. Bu dində Tanrı, siyasətdə monarxdır. Daha sonra məqalədə jurnala tövsiyə olunurdu ki, Marksın böyük adından istifadə edilərək səriştəsiz məqalələrin çap olunmasının qarşısı alınsın[11] .

---

[9] Kommunist", 1933, №143

[10] Базылев Н.И., «Становления экономической теории социализма в СССР», Минск, изд. БГУ, 1975, с. 24-25

[11] «Бакинский рабочий», 1927, №203

**3. 20-30-cu illərdə iqtisad elminin ümumi nəzəri problemlərinin *(iqtisad elmləriinin təsnifatı və predmeti)* iqtisadi fikirdə əksi tədqiq olunmuşdur**

Dissertasiya işində 20-30-cu illərdə iqtisad elminin ümumi nəzəri problemlərinin *(iqtisad elmləriinin təsnifatı və predmeti)* iqtisadi fikirdə əksi məsələsi işıqlandırılmışdır.

20-30-cu illərdə mövzu etibarı ilə iqtisadi fikri məşğul edən diskussiyaları 2 qrupa bölmək olar. ***Birinci qrupa*** iqtisad elminin ümumi nəzəri-metodoloji problemləri ilə əlaqədar diskussiyaları, ikinci qrupa sovet iqtisadiyyatının problemləri ilə əlaqədar diskussiyaları aid etmək olar.

Ümumi nəzəri-metodoloji problemlər ətrafında gedən diskussiyalar qismində "iqtisad elmlərinin təsnifatı", "siyasi iqtisadın tarixi hüdudları" (1925), "siyasi iqtisadın predmet və metodları" (1928-1929), həmçinin "iqtisadi fikir tarixinin predmeti" ilə bağlı fikir müxtəlifliyi göstərilə bilər.

Dissertasiya işində iqtisad elmlərinin təsnifatı və predmetinin müəyyənləşdirilməsi məsələsi ilə əlaqədar dəyərləndirmələrə xüsusi yer verilmişdir. Araşdırmalar zamanı məlum olmuşdur ki, ayrı-ayrı elm sahələrinin predmeti məsələsində qarmaqarışıq mənzərə 30-cu illərin sonlarına qədər davam etmişdir. Yaranmış situasiya tədqiq edilən dövrdə Azərbaycanda elmin, o, cümlədən iqtisad elminin müxtəlif sahələri üzrə dərc edilən əsərlərin biblioqrafik məlumatlarında da müşahidə olunurdu. 20-30-cu illərdə nəşr edilən "Azərbaycan mətbuat kitabiyyatının" materialları deyilən fikri təsdiqləyir. Məsələn 1933-cü ilə aid buraxılışda iqtisadi nəzəriyyə termini işlədilir. Daha sonra 40-cı ildə siyasi iqtisad elmi digər iqtisad elmləri sırasına daxil edilən sahə kimi göstərilirdi. Bütünlükdə 20-30-cu illərdə iqtisad elminin eyni sahəsi "nəzəri iqtisadiyyat", "siyasi iqtisad", "iqtisadiyyat nəzəriyyəsi" kimi terminlərlə ifadə olunmuşdur.[12]

Diskussiyalar siyasi iqtisadın predemti və tarixi hüdudları məsələsi ətrafında daha kəskin xarakter almışdı.

Siyasi-iqtisad terminini ilk dəfə 1615-ci ildə fransız merkantilisti Antuan Monkretyen "Siyasi-iqtisad traktatında" işlətmişdir. Siyasi iqtisad müstəqil elm kimi kapitalizmin təşəkkül tapdığı dövrdə

---

[12] Azərbaycan mətbuat kitabiyyatı, 1933, №3-4, s.1; №9-10, s.2-4; "Azərbaycan kitab letopisi",№1-2, 1940

formalaşmağa başlamışdır. İlk burjua siyasi-iqtisad məktəbi isə merkantilizm hesab olunur.

XX əsrin 20-ci illərində iqtisadçıların əksəriyyəti hesab edirdilər ki, proletar inqilabının qələbəsindən sonra siyasi-iqtisad elminə lüzum yoxdur və siyasi-iqtisad elmi ancaq kapitalist istehsal üsulunu öyrənir[13]. Siyasi-iqtisadın kapitalist istehsalı münasibətləri, əmtəə fetişizmi və kapitalist iqtisadiyyatı şəraitində bir elm kimi gərəkli olması fikrini M.Tuqan-Baranovski, R.Hilferdinq, N.Buxarin, R.Lüksemburq dəstəkləyirdilər[14] .

Dissertasiya işində siyasi iqtisadın predmeti məsələsi ilə əlaqədar respublikamızda diskussiyalara cəlb olunmuş L.A.İşkov, A.İ.Hilman, Q.A.Xarazov, M.N.Sobolyev, T.L.Berin, İ.Q.Sofronoviç, B.Həsənbəyov, Q.Sultanov və b. fikirləri ilk dəfə olaraq qiymətləndirilir.

A.Hilman, Q.A.Xarazov, A.Məmmədbəyov hesab edirdilər ki, siyasi-iqtisad kapitalizmi dəyişdirmək üçündür. Sonra ona ehtiyac yoxdur və siyasi-iqtisadın sonuncu fəsli dünya proletariatının ictimai inqilabı fəsli olmalıdır. P.P.Fridolin, T.L.Berin, M.Zeynalov diskussiyalarda siyasi-iqtisadın istehsal münasibətlərindən, məhsuldar qüvvələrindən təcrid olunmuş halda öyrənilməsi fikrində idilər. Prof. B.Həsənbəyov, Y.Spasski mexanistləri tənqid etsələr də siyasi-iqtisadın predmeti məsələsinə ehtiyatla yanaşaraq öz fikirlərini təfsilatı ilə şərh etməyiblər .

Araşdırmalar zamanı məlum olmuşdur ki, belə bir qeyri müəyyənlik "iqtisadi fikir tarixinin" predmeti məsələsi ilə əlaqədar mövcud idi. İqtisadi fikir tarixi predmeti respublikanın ayrı-ayrı təhsil ocaqlarında müxtəlif adlarla tədris olunurdu (məsələn ***"Rusiya xalq təsərrüfatı tarixi və iqtisadi fikir tarixi;*** **İmperializm və iqtisadi təlimlər tarixi).**

Tədqiqat işində müəyyənləşdirilmişdir ki, Azərbaycanda da sovet iqtisad elminin meyar və prinsiplərinə əsasən iqtisad elmlərinin ayrı-ayrı sahələrinin predmeti, bir sıra nəzəri məsələlər ətrafında ümumi təsəvvürlər 30-cu illərin sonlarına doğru formalaşmağa başladı.

---

[13] Валовой Д.В. Лапщина Г.Е. Социализм и товарное отношения. М. : Экономика, 1972, с. 361-362

[14] Широкорад Л.Д. Методологические проблемы политической экономии социализма в советской экономической литературе переходного периода. Л.: изд. ЛГУ, 1974, с. 36

**4. Kapitalizmdən yeni iqtisadi münasibətlərin bərqərar olduğu cəmiyyətə keçid (sosializmə keçid) probleminin iqtisadi ədəbiyyatlarda necə əks olunduğu öyrənilmişdir.**

Dissertasiya işində 20-30-cu illərdə kapitalizmin alternativi hesab edilən və iqtisadi münasibətlərin bərqərar olduğu cəmiyyətə keçid probleminin iqtisadi ədəbiyyatlarda əksi məsələsi araşdırılmışdır və ən geniş müzakirə obyektinə çevrilən mövzular, əsasən sosializmin alternativinin müəyyənləşdirilməsi ilə əlaqədar diqqəti cəlb edir.

Elmi müşahidələr sosializmin məntiqi və praktiki cəhətdən həyata keçirilməsinin qeyri mümkünlüyü konsepsiyası (avstriya iqtisadçıları L.Mizes, F.Hayek, ingilis iqtisadçısı L.Robbins, İsveçrə iqtisadçısı V.Repke, alman sosioloqu, tarixçi və iqtisadçısı Maks Veber, alman iqtisadçısı Adolf Veber və b.), Neoklassik iqtisadi nəzəriyyədə sosializm və yaxud yeni sosial nəzəriyyə (O.Lanqe və F.Teylorun), Keyns və neokeynsçilərin dəyərləndirmələri, Sosializmin Texnokratik və menecer modeli (F.Akkerman), -"Kapitalizmin özü-özünü ləğv edəcəyi haqqında nəzəriyyə" (Y.Şumpeter), Valter Oykenin Mərkəzi idarəetmə təsərrüfatı modeli, "Alman sosializmi modeli (V.Zomabart), K.Kautski və avstriya-alman marksistlərinin sosialist inqilabi və sosializm haqqında fikirləri, Leyborist sosializmi ( D.Koul, X.Daltaon), anarxist, faşist, rus burjua və xırda burjua iqtisadçılarının nəzəri-iqtisadi mühakimələri təhlil edilərək qiymətləndirilmişdir.

Bu kontekstdə ilk dəfə olaraq 20-30-cu illərdə Azərbaycan milli təsərrüfat konsepsiyasının bəzi motivləri (milli təmayülçülük və milli təsanüd) dissertasiya işinin üçüncü fəslində araşdırılır.

Araşdırmalar zamanı məlum olmuşdur ki, tədqiq edilən dövrdə sovet iqtisadi doktrinası bir qrup azərbaycanlı kommunistlər içərisində müəyyən narazılıqlar qarşılanmışdı və sözügedən istiqamətin ardıcılları milli təmayülçülük və yaxud rəsmi doktrinaya qarşı müxalifətdə olan kommunistlər hesab edilirdi. Tədqiqat işində milli təmayülçü qrupa daxil olanlar N.Nərimanov, Xanbudaqov, Qədirli, B.Talıblı, S.M.Əfəndiyevin iqtisadi fikirləri təhlil edilərək qiymətləndirilir.

Milli təmayülçülükdə ittiham olunanlar Azərbaycanın iqtisadi bütövlüyü və maddi imkanlarını nəzərə alaraq marksist şərhlər əsasında Azərbaycanın Rusiya tərəfindən istismar olunmasına qarşı çıxırdılar.

Milli təsərrüfatçılıq konsepsiyasının motivlərinə mühacirətdəki M.Ə.Rəsulzadə və onun həmfikirlərinin əsərlərində rast gəlmək mümkündür.

Dissertasiya işində ilk dəfə olaraq M.Ə.Rəsulzadənin "Milli Təsanüd", "Millət olmaq əzmi", "Millətçilik-Patriotizm" və digər məqalələrində milli dünyagörüşü və Azərbaycan üçün məqbul sayılacaq milli iqtisadi konsepsiyanın baza dəyərləri ilə əlaqədar fikirlər irəli təhlil edilərək qiymətləndirilmişdir.

Tədqiqatlarda Azərbaycanın tam müstəqilliyi uğrunda mübarizə aparan mühacirətdəki cümhuriyyətçilərin iqtisadi fikirləri təhlil edilərkən müəyyən edilmişdir ki, mühacirətdəki Müsavat partiyasının üzvləri 30-cu illərdə artıq cəmiyyətdə və həmçinin mülkiyyət münasibətlərinin təşkilində ***solidarizm*** və ***korporativ*** ideyalara üstünlük verirdilər. Qəbul olunmuş proqram və məramnamələrdə milli həmrəylik ideyası xüsusi yer tuturdu.

Təbiidir ki, yuxarıda göstərilən müddəalar sosial və milli ekspansiyaya məruz qalan respublikanın iqtisadi maraqlarının qorunmasına xidmət edirdi.

Çox aşkar görünür ki, Azərbaycanlı mühacirlər iqtisadi fikirlərində korporativ və solidarizm prinsipləri əsasında cəmiyyətdə iqtisadi və mülkiyyət münasibətlərinin qurulmasını məqbul hesab edir, kommunist eksperimentlərinin gec tez iflasa uğrayacağını bildirirdilər.

**5. Sovet iqtisadiyyatının nəzəri məsələləri ilə bağlı irəli sürülən fikirlərdə əsas istiqamətlər araşdırılmışdır**

Dissertasiya işində həmçinin XX əsrin 20-30-cu illərində iqtisadiyyatın nəzəri məsələləri ətrafında gedən ciddi ideya mübarizələrinə də diqqət yetirilmişdir.

Sovet iqtisadiyyatının problemləri ilə əlaqədar aşağıdakı diskussiya mövzuları qeyd edilə bilər:

- Sosialist iqtisadiyyatının modeli, keçid dövrü və mülkiyyət plüralizmi;
- Sosialist dövlətinin rolu, planlaşdırmanın mahiyyəti və vəzifələri;
- Əmtəə-pul münasibətlərinin mahiyyəti və bazar iqtisadiyyatı ilə əlaqədar dəyərləndirmələr;
-Təsərrüfat tipləri və tənzimləyicilər haqqında mühakimələr;
- Ölkənin gələcəkdə inkişaf etdirilməsi yolları, iqtisadi böhran problemləri ilə əlaqədar mövqelər;
- Xalq təsərrüfatının sənayeləşdirilməsi;
-Aqrar münasibətlər və kooperativləşdirmə; əmək haqqı və ictimai əmək bölgüsü problemi.

Araşdırmalar zamanı iqtisadi fikirdə sosialist iqtisadiyyatının modeli, keçid dövründə mülkiyyət pluralziminin spesifikası məsələləri

ilə əlaqədar dəyərləndirmələrdə aşağıdakı cəhətlərə xüsusi olaraq diqqət yetirilmişdir:

-Əsas istehsal vasitələrinin milliləşdirilməsi ilə ictimai mülkiyyətin bərqərar edilməsi;

-İstehsalın və məhsulların bölgüsünün müfəssəl planlaşdırılması;

- İstehlakçıların istehsalçılara sərt təhkim olunması;

-Əməyin icbari xarakter alması;

-Cəmiyyət üzvləri arasında məhsul və xidmətlərin natural və bərabər bölgüsünün təşkil olunması.

Ümumiyyətlə tədqiq edilən dövrdə sosialist dəyişiklikləri həyata keçirilərkən iki variant diqqəti cəlb edirdi. Birinci variantda tədricən, ənənəvi təsərrüfat strukturlarından da istifadə etməklə, kompromislərlə sosializmə keçid nəzərdə tutulurdusa, ikinci variantda bunun əksinə olaraq tez bir zamanda və dərhal kapitalın hökmranlığına son qoyulması, yeni quruluşa sürətlə keçidin təmin olunması nəzərdə tutulurdu.

*Azərbaycanda da sosialist iqtisadiyyatının modeli, keçid dövründə mülkiyyət plüralizmini spesifikası məsələləri* ilə, formalaşmaqda olan münasibətlərlə əlaqədar fikirlər səslənmişdir. Tədqiqat işində baş verən ictimai-iqtisadi proseslər kontekstində səslənən fikirlər tarixi faktlar əsasında ilk dəfə olaraq tədqiq edilmişdir.

Respublikada bolşeviklər sovet hakimiyyətini elan etdikdən dərhal sonra geniş milliləşdirmə kompaniyasına başlanıldı. Lakin Yeni İqtisadi Siyasətə keçid az rentabelli və fəaliyyət göstərməyən müəssisələrin icarə və ya konsessiyaya verilməsi məsələsini gündəmə gətirmişdi. Konsessiyalar məsələsi ilə əlaqədar fikirlərin müəllifi kimi N.Nərimanovun və M.Baharlının fikirləri təhlil olunaraq qiymətləndirilmişdir.

20-ci illərin sonlarına doğru bütün sovet məkanında olduğu kimi Azərbaycanda da mülkiyyət plüralizmi aradan qaldırıldı. İnzibati amirlik sistemi, totalitar rejimin iqtisadi doktrinasının reallaşdırılması diqqəti cəlb edir.

Araşdırmalar zamanı XX əsrin 20-30-cu illərində *iqtisadiyyatda sosialist dövlətinin rolu və xalq təsərrüfatının planlaşdırılmasının vəzifələri* ilə əlaqədar mövcud fikirlərdə təhlil edilərək dəyərləndirilmiş və iki əsas yanaşma xüsusi olaraq diqqəti cəlb etdiyi müəyyənləşdirilmişdir.

Birinci yanaşma iqtisadi ədəbiyyatlarda teleoloji yanaşma adlandırılaraq marksist iqtisadçılara məxsus idi və burada dövlətin iqtisadi tənzimləmədə rolu, planlaşdırmanın rolu mütləqləşdirilirdi.

İkinci yanaşmada, yəni genetik yanaşmada iqtisadi tənzimlənmə məsələlərində bazar mexanizmlərinə xüsusi üstünlük verilirdi.

Planlaşdırmanın teleoloji şərhinin ən önəmli tərəfdarı kimi Q.M.Krjijanovskini, S. Q. Strumilini xüsusi ilə qeyd etmək olar. Dissertasiya işində həmçinin planlaşdırma məsələsində genetik yanaşmanın nümayəndələrindən N.D.Kondratyevin fikirləri nəzərdən keçirilmişdir.

Azərbaycanda rəsmi iqtisadi doktrinada teleoloji yanaşma qəbul olunsa da alternativ dəyərləndirmələrin mövcudluğu da müəyyənləşdirilmişdir.

Respublikada planlaşdırma məsələsi ilə dəyərləndirmələr beşillik planlarının hazırlanması ərəfəsində və sonrakı illərdə xüsusi aktuallıq qazanmağa başladı. Müvafiq olaraq dövrü mətbuat materialları əsasında planlaşdırmaya həsr edilən "Tamaşaçı" ləqəbi ilə dərc edilən materiallar, İ.Kirnarskinin, S.Naumovun, E.Rodionuvun və digərlərinin fikirləri ilk dəfə olaraq təhlil olunmuşdur. Planlaşdırma məsələsində alternativ fikir sahibləri kimi qruppaçılıqda ittiham edilən M.Zeynalov, Y.Qasımov, Surıgin, Meşkov və b. fikirləri qeyd oluna bilər. İttihamlarda bildirilirdi ki, onlar "sağ" və "sol" mövqelərdən Zaqafqaziya Federasiyasını nüfuzdan salır, guya ancaq onlar Zaqafqaziya Federasiyasının möhkəmliyini istəyir. Eyni zamanda qruppaçıları pambıq planlarının, neft sənayesinin artım tempinin qeyri real olması barədə şayə yaymaqda ittiham edirdilər[15] .

Qeyd etmək lazımdır ki, planlaşdırma ilə əlaqədar heç bir fikir plüralizminə yol verilmirdi və Azərbaycan iqtisadiyyatının inkişaf istiqamətləri respublikanın iqtisadi mənafeləri baxımından müəyyənləşdirilmir, mərkəzin maraqlarına daha yaxşı xidmət etmək imkanlarının artırılması məqsədinə tabe edilirdi. İstənilən fərqli düşüncə və mühakimələr ciddi təqib olunurdu.

Azərbaycan iqtisadi fikrində tədqiq edilən illərdə əmtəə-pul münasibətlərinin mahiyyəti və bazar iqtisadiyyatı ilə əlaqədar dəyərləndirmələr araşdırılarkən respublikada nəşr edilən "İqtisadi Xəbərlər" jurnalında A.Delitsın, B.Quxman, müxtəlif imza və psevdonimlərlə dərc edilən materiallarda səslənən fikirlər ilk dəfə olaraq nəzərdən keçirilmişdir. Adı çəkilən dəyərləndirmələrdə əmtəə-pul münasibətlərinin, bazar, birja və planlaşdırmanın sosialist təsərrüfatçılığında da istifadə olunmasının vacibliyi fikri əsaslandırılırdı.

---

[15] «Бакинский рабочий», 1931, №205

*Ölkənin inkişaf etdirilməsi perspektivləri ilə əlaqədar nəzəri dəyərləndirmələr təhlil edilərkən* 3 əsas istiqamət diqqəti cəlb edir. Sovet iqtisadi fikrində ***birinci istiqamətin*** ardıcılları fərdi kəndli təsərrüfatına əsaslanan aqrar sektorun inkişaf etdirilməsini, təchizat və satış kooperasiyalarının yaradılmasını təklif edirdilər. Bu istiqamətin nümayəndələri A.V.Çaynov, A,N.Çelintsev N.D.Kondratyev elmi ədəbiyyatlarda istehsalın təşkili məktəbinin ardıcılları kimi də xarakterizə edilmişdir. ***İkinci istiqamətin*** ardıcılları-motədil modernizatorlar ölkənin sənayeləşdirilməsi zəminində kəndlilərin istismar edilməməsi şərti ilə bazar tarazlığının təmin edilməsinin mümkünlüyü fikrində idilər. Bu istiqamətin tərəfdarları N.İ.Buxarin, A.İ.Rıkov, L.N.Yurovski hesab edilirdi. ***Üçüncü istiqamətin tərəfdarları*** kimi E. Preobrajenski və onların həmfikirləri hesab olunur. Bu istiqamətin ardıcılları sənayeləşdirilmənin artım tempinin gücləndirilməsi və vəsaitlərin kənd-təsərrüfatından cəlb edilməsi fikrində idilər. Müvafiq olaraq Azərbaycan iqtisadi fikrində M.Bağırovun, B.Həsənbəyovun, İ.Peçerski və digərlərinin fikirləri təhlil olunaraq qiymətləndirilmişdir. Kollektivləşdirmə məsələsində rəsmi mövqe sürətlə kollektivləşmənin həyata keçirilməsi, fikir ayrılıqlarının ciddi surətdə cəzalandırılması, sənayeləşdirmə məsələsində isə bir tərəfdən sürətlə sənayeləşdirmənin həyata keçirilməsi fikri səslənirdisə, digər tərəfdən Azərbaycanda sənayeləşdirmənin ancaq ayrı-ayrı sahələr üzrə, xüsusən də təbii resursların hasilatı və ona xidmət edən sahələrin məhdud maliyyə resurslarından istifadə olunması ilə həyata keçirilməsi fikirləri irəli sürülürdü.

Azərbaycanda sürətlə sənayeləşdirmənin həyata keçirilməsi fikrinin tərəfdarı kimi H.B.Ağaverdiyev göstərilə bilər. Ağaverdiyev "*Zaqafqziya metallurgiya zavodu" (populyar oçerk), Bakı, Daşkəsən Komitəsi və AHİŞ-in nəşriyyatı 1930"* - adlı monoqrafiyasında yazırdı ki, bütün xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulmasının sürətləndirilməsi (форсированный) qara metallurgiyanın sürətləndirilmiş inkişafını tələb edir.

Tədqiqat işində həmçinin iqtisadi böhranlar, iqtisadi tarix və iqtisadi fikir tarixi, sosialist əməyinin təşkili ilə əlaqədar nəzəri mühakimələr dəyərləndirilmişdir.

Tədqiqatlar zamanı Azərbaycan iqtisadi fikrində xüsusi istiqamət kimi mühacir ədəbiyyatlarında sovet iqtisadiyyatında gedən proseslərlə səslənən fikirlər təhlil olunmuşdur. Azərbaycanlı mühacirlərin əsas iqtisadi fikirləri Müsavat partiyasının proqramlarında tələblər kimi öz

əksini tapmışdır. Dissertasiya işində iqtisadi məzmun daşıyan tələblər xüsusi olaraq araşırılmışdır. Bunlar aşağıdakılardır:

– kiçik sənaye müəssisələrinin milliləşdirilməsi;

– bütün torpaqların dövlət torpaq fonduna daxil edilməsinin ləğvi və kəndlilərə, onlara yetəcək qədər torpaqların paylanması;

– torpağın tam olaraq öz sahibinə, kənd-təsərrüfatı məhsullarının əsas istehsalçı olan kəndlilərə verilməsi;

– ticarət azadlığının təmin olunması;

– xüsusi mülkiyyət tanınmaqla, kəndli əməyi və kiçik sənayenin dövlət himayəsinə keçməsi, iri müəssisələrin ya dövlət ya da ictimai təşkilatlar tərəfindən idarə olunması;

– fəhlələrin sənaye müəssisələrinin mənfəətinə şərik olması, fabrik və zavodların texniki və iqtisadi inkişafında maraqlı olması, işçi qanunvericiliyinin fəhlələrə Avropa ölkələrində olduğu kimi normal iş şəraiti yaradılmasına xidmət etməsi.

**6. Azərbaycanın əsas iqtisadi sektorlarının inkişaf istiqamətləri ilə əlaqədar iqtisadi ədəbiyyatlardakı fikirlər dəyərləndirlmişdir**

Araşdırmalar zamanı respublikada əsas iqtisadi sektorları neft, dağa-mədən hasilatı, energetika, kimya sənayesi, meşə sənayesi və tikinti iqtisadiyyatı, qida və yeyinti, balıqçılıq sənayesi, nəqliyyat infrastrukturu, daxili və xarici ticarət, aqrar sahənin problemləri ilə əlaqədar fikirlər müəyyənləşdirilərək qiymətləndirilmişdir. Azərbaycan iqtisad elminin və iqtisadi fikrinin sözügedən sahələrdə inkişaf xüsusiyyətləri və təmayülləri qiymətləndirilmişdir. Respublikada neft sənayesinin iqtisadi məsələləri ilə diqqətəlayiq dəyərləndirmələr müəllifləri kimi S.Kovalevski, A.Nikişin, N.Tolstonoqov, M.Lyadov, M.Şık, V.Matveyev, F.Yakobson-Kolpakov, V.Alışevski, V.Lvov, M.Polyakov, K.Oksyenov, N.Lebedyev, V. Taube, S.Konstantinov, S.N. Ramm, Bondarevski, Etçin və. b. adlarını göstərmək olar.

Dağ mədən hasilatı sənayesi məsələləri ilə əlaqədar V.S.Udintsev, Mir Bağırlı, M.Baharlı, K.Anaşkin, S.Naumov, V.Krılov, M.Vedernikovun, energetika sənayesi ilə əlaqədar Zolyataryovun, Rzazadənin, P.Belausovun, İ.Q.Esmanın, E.P.Pankovun, şüşə və kimya sənayesi ilə əlaqədar B.A.Talıblı, Q.B.Ağaverdiyev, S.D.Hüseynov, N.S.Solovyov, A.P.Serebrovski İ.Nikonovun, tikinti iqtisadiyyatı ilə əlaqədar P.Vinoqradov-Nikişinin, A.Novikovun, V.E.Novodvorskinin, S.Q.Daidbekovun, qida, yeyinti və balıqçılıq sənayesinin inkişaf etdirilməsi ilə əlaqədar Şir-Əli, P.Maslov, M.V.Vasilyev, prof.

Derjavinin, İ.P.Kazakovun, Ç.İldrımın, nəqliyyat infrastrukturu ilə əlaqədar H.Sultanovun, D.Qolovninin, E.İ.Koqnovitskinin, ticarət iqtisadiyyatı ilə əlaqədar N.Tolstonoqovun, İ.Kirnarskinin, N.Zolotovun, S.S.Krivtsovun, E.Xandəmirovun, M.Qurbanovun, X.Ziyadovun, H.B.Hüseynovun, səhiyyə iqtisadiyyatı ilə əlaqədar S.İtkinin, M.K.Edelsonun və d. fikirləri araşdırılmışdır.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən müəlliflər respublikanın dövrü və elmi mətbuatında xalq təsərrüfatının aidiyyəti sahəsinin inkişaf etdirilməsi yolları ilə əlaqədar dəyərləndirmələrində ayrı-ayrı sahələrin inkişaf etdirilməsi yollarını birbaşa mərkəzin maraqları baxımından təqdim edirdilər.

Daşkəsən probleminin həlli ilə əlaqədar dəyərləndirmələrdə bu fikir xüsusi ilə daha qabarıq özünü büruzə verir. Daşkəsəndə dəmir yataqlarının istismarının eyni zamanda respublikanın qərb bölgəsində bir sıra problemlərin həllini tələb edirdi. Buraya metallurgiya zavodunun tikilməsi, metallurgiya zavodu ilə dəmir filizi yataqları arasında dəmir yolu xəttinin çəkilməsi, eyni zamanda metal hasilatı, emalı və daşınması prosesinin təşkili üçün elektrik enerjisi istehsal edən elektrik stansiyaların tikilməsi və bir sıra digər problemlərin həlli daxil idi. Baxmayaraq ki, hər il təkcə Azərbaycan neftinin ixracından SSRİ büdcəsinə küllü miqdarda vəsait daxil olurdu, yenə də respublika büdcəsi kəsirli idi. Yəni istehsalın təşkili tələb ediləndən az vəsaitlərlə həyata keçirilirdi. Digər məsələ, metaləritmə zavodunun dəmir filizi yataqlarına yaxın ərazidə tikilməsi məqsədəuyğun olduğu halda, sözügedən zavodun, metalın əridilməsi üçün tələb olunan daş kömürü ehtiyatlarına yaxın olduğu ərazidə tikilməsi qərarının qəbul olunması özü-özlüyündə respublikanın maraqlarının demək olar ki, tam olaraq heçə sayılmasından xəbər verirdi. Məhz bu problemdən qaynaqlananın və problemin həlli ilə əlaqədar fərqli fikirlər meydana çıxmışdı. H.Sultanov, H.Aleksandroviç və b. birmənalı olaraq metallurgiya zavodunun Azərbaycan respublikasının qərb bölgələrində dərhal tikilməsi fikrini müdafiə edirdilərsə, digər fikir də var idi. İkinci fikirdə iddia olunurdu ki, metallurgiya zavodu üçün tələb olunan daş kömür problemi həll edilmədən zavodun harada tikilməsi məsələsi ilə əlaqədar

qərar qəbul etmək olmaz. İkinci mövqe S.Naumov tərəfindən dəfələrlə dövrü və elmi mətbuatda dərc edilən materiallarda öz əksini tapmışdı [16].

Araşdırmalar zamanı respublikada əsas iqtisadi sektorlardan olan aqrar sahə ilə əlaqədar tədqiq edilən dövrdə mütəxəssislərin fikirləri təhlil edilərək qiymətləndirilmişdir.

Dissertasiya işində Azərbaycanda kənd-təsərrüfatı iqtisadiyyatının təşkili, aqrar sektorun ənənəvi və qeyri ənənəvi sahələrindəki mövcud vəziyyət və inkişaf perspektivləri, respublikada sənaye iqtisadiyyatı və xalq təsərrüfatının digər sahələrinin inkişaf etdirilməsi məsələləri ilə əlaqədar iqtisadi ədəbiyyatlardakı fikirlər araşdırılmışdır.

Tədqiqatlar zamanı respublikada bitkiçilik və əkinçilik mədəniyyətinin ənənəvi sahələrinin iqtisadi problemlərinə həsr olunmuş fikirlər müəyyənləşdirilmişdir. Tədqiq edilən dövrdə respublikada bitkiçilik və əkinçiliklə əlaqədar diqqətəlayiq fikirlər qismində M.Baharlı, M.Avdeyev, M.Əliyev, S.Stepanov, X.Fişer, N.A.Lebedyev, P.P.Medvedyev, Z.Rodionov, M.Y.Cəfərov, T.Əliyev, B.Rüstəmbəyov, N.A.Yajqunoviç, P.M.Joqelev, A.H.Mehdiyev, S.Y.Boqdatyev, M.Q.Hacinski, F.Əliyev, R.Şabanov, M.K.Alekseyev, T.Mariçev, M.Q.Rizayev, V.A.Vasilyev, V.K.Polotnitski və b. fikirlərini qeyd etmək olar.

20-ci illərə kimi Azərbaycanda əkinçilik mədəniyyətinin əsas sahələri dənli və taxıl bitkilərinin becərilməsi sahələri idi. Sonrakı yerlərdə müvafiq olaraq pambıqçılıq, üzümçülük, meyvəçilik, tütünçülük və digər sahələr dayanırdı. Lakin 20-ci illərin əvvəllərində taxılçılıq, pambıqçılıq, üzümçülük sahələri ciddi böhran keçirirdi. İqtisadi dəyərləndirmələrdə sözügedən sahələrin inkişaf etdirilməsi ilə əlaqədar fikirlər irəli sürülürdü. Bu xüsusda diqqəti 1924-cü ildə Mürsəl Əliyevin “Bakı təşkilatının 25, Azərbaycanın sovetləşməsinin 4-cü ildönümü

[16] Александрович Г. Новое воззрение проблемы черной металлургии в Закавказии. // «Экономический Вестник Азербайджана», 1929, №10-11, стр.11-18 ; «Бакинский рабочий», 1928, №2; №199

münasibəti ilə" adlı Moskvada dərc edilmiş kitabdakı fikirləri, [17], həmçinin kənd təsərrüfatı iqtisadiyyatı məsələləri ilə əlaqədar araşdırmalar aparan mütəxəssislər qrupunun fikirləri qiymətləndirilmişdir. Elmi və dövrü ədəbiyyatlarda səslənən fikirlərdə aşağıdakı istiqamətlər xüsusi olaraq diqqəti cəlb edir: 1) Respublikada ənənəvi kənd təsərrüfatı sahələrinin bərpa edilərək inkişaf etdirilməsi üçün Muğan, Mil, Araz sahili boyu torpaqlarda suvarma işlərinin təşkili məsələlərinə diqqətin artırılması, 2) fiziki-mexaniki, kimyəvi, bioloji üsullardan kompleks olaraq istifadə edilərək sözügedən sahələrin daha səmərəli inkişaf etdirilməsinin vacibliyi fikrini əsaslandırırdılar. Bu xüsusda "İqtisadi Xəbərlərdə" dərc edilən X.Fişerin "1923-cü ildə Azərbaycanda pambıq məhsullarının realizə edilməsi", N.A.Lebedyevin "Müasir Muğan", M.A.Avdeyevin "Xam torpaq sahələri və onların becərilməsi", "Muğan meliorasiyası tikinti idarəsinin traktora parkı və ondan istifadə imkanları", P.P.Medvedyevin "Muğanın mexaniki üsullarla suvarılan rayonlarında pambıq əkini", Muğanda pambıqçılığın müasir vəziyyəti və onun ehtiyacları", Z.Rodionovun "Azərbaycanda kənd-təsərrüfatı ziyanvericilərinə qarşı mübarizənin təşkili" məqalələrindəki dəyərləndirmələri[18] təhlil edilərək qiymətləndirilmişdir.

Respublikada əkinçiliyin ənənəvi sahələrindən daha çox pambıqçılığa üstünlüyün verilməsi kursu, müvafiq olaraq müəyyən instituonal strukturların yaradılması mütəxəssis dəyərləndirmələrinə də təsir göstərmək də idi. Pambıqçılığın inkişaf etdirilməsi ilə əlaqədar məqalələrin dərc olunması və müvafiq fikirlərin səslənməsi demək olar ki, gündəmdən düşməyən məsələyə çevrilmişdi. Pambıqçılığın inkişaf etdirilməsinə artan diqqət respublikada taxılçılığın və heyvandarlığın inkişafına ciddi təsir göstərdi. Yəni Azərbaycanın Orta Asiyanın pambıqçılıq təsərrüfatlarının inkişaf etdirildiyi respublikalarla birlikdə SSRİ-nin pambıq məhsuluna, xam mala olan tələbinə xidmət etməsi ideyası mütəxəssis dəyərləndirmələrində apriori ideyaya çevrilmişdi.

Kənd təsərrüfatı iqtisadiyyatının digər diqqətəlayiq məsələsi kimi heyvandarlıq təsərrüfatlarındakı mövcud vəziyyət və sahənin inkişaf

---

[17] Двадцати пяти летия Бакинской организации, 4-ая годовщина Советизации Азербайджана. М: Издательство правления Закавказского студенческого землячества ,1924, с. 51-52

[18] «Экономический Вестник» (Еженедельный орган Высшего Совета АССР ). Баку: 1924, №2, с. 2-23

etdirilməsi ilə əlaqədar irəli sürülən fikirlər qeyd oluna bilər. 20-ci illərin əvvəllərində analitik dəyərləndirmələrdə sözügedən sahədəki situasiya böhran vəziyyəti kimi qiymətləndirilmişdir. Heyvandarlıq təsərrüfatlarının iqtisadi göstəriciləri 1913-cü il göstəriciləri ilə müqayisədə 50% azalması müşahidə edilmişdi. Aqrar sektorun bu sahəsində nisbi canlanmanın 1922-ci ildən başlandığı və göstəricilərin ancaq 15-20% yüksəldiyi müəyyən olunmuşdu. Dissertasiya işində 20-30-cu illərdə aqrar sektorun heyvandarlıq sahəsinin inkişaf etdirilməsi ilə əlaqədar elmi müşahidələr aparan mütəxəssislərin fikirləri təhlil olunmuşdur. Müvafiq olaraq öncə prof. İ.İ.Kaluginin ("Azərbaycanda heyvandarlıq sahəsində vəziyyətlə əlaqədar aparılmış araşdırmaların qısa hesabatı", Bakı 1927, 43 səh) dəyərləndirmələri xüsusi olaraq qeyd olunmalıdır. İ.Kalugin müşahidələri əsasında Azərbaycanın 403 kəndini əhatə edən, 1927 sürünün və 16540 heyvanın göstəricilərinin fərdi cədvəlləri tərtib edilmiş, 16540 heyvanın ölçülərini aparılmış, 2650 fotoşəkil çəkilmiş, 5553 süddən və 2340 yundan nümunələr götürülərək, respublikada. heyvandarlığın inkişafına səbəb olan əngəlləri müəyyən edilmişdi[19] .

Eyni zamanda Xalq Torpaq Komissarlığının tapşırığına əsasən A.A.Qrossqeymin rəhbərliyi ilə Azərbaycanda heyvandarlığın vəziyyətinin öyrənilməsi ilə əlaqədar ekspedisiyalar təşkil olunmuş, M.N.Avdeyev Mil, Qarabağ, Şirvan çöllərində, Qazax qəzasında köçəri maldarlığın iqtisadi vəziyyəti ilə əlaqədar müşahidələr aparmışdı.

20-ci illərin sonlarına doğru M.Nağıyevin dəyərləndirmələri diqqəti cəlb edir. M.Nağıyev "Yaylaqlarda köçərilərin vəziyyəti", "Unudulmuş tayfa" adlı məqalələrində Gəncə, Qarabağ, Şirvan, Muğan, Zaqatalada yerləşən, köçəri maldarlıqla məşğul olan əhalini, tərəkəmələri unudulmuş tayfa adlandıraraq, onların iqtisadi və həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində dövlət tədbirlərinin həyata keçirilməsini vacib hesab edirdi [20].

30-cu illərin əvvəllərindən etibarən iqtisadi ədəbiyyatlarda heyvandarlıqla məşğul olan əhalinin oturaqlaşdırılması, pambıqçılıq təsərrüfatlarının üstünlük təşkil etdiyi dairələrdə heyvandarlığın minimal ehtiyacların təmin olunması səviyyəsində saxlanılması, kooperativ təsərrüfatların yaradılması və s kimi məsələlərlə əlaqədar müzakirələr

---

[19] «Бакинский рабочий», 1927, №258

[20] "Dan yıldızı" (jurnal), 1929, №5, s. 34; №8, s. 10

üstünlük təşkil edirdi. Bu istiqamətdə dəyərləndirmələr müəllifi kimi A.B.Ağayev xüsusi olaraq qeyd oluna bilər[21] .

Elmi araşdırmalarda 20-30-cu illərdə Respublika üçün qeyri ənənəvi təsərrüfat sahələrinin, subtropik bitkiçiliyin inkişaf etdirilməsi, yabanı bitkilərdən təsərrüfat və iqtisadi məqsədlər üçün istifadə məsələləri ilə əlaqədar səslənən fikirlər də müəyyənləşdirilərək təhlil olunmuşdur. 20-ci illərin əvvəllərində Azərbaycan Respublikasında yabanı halda yetişən *qalfa-esperto* bitkisinin sənaye məqsədləri üçün istifadə edilməsi məsələləri ilə əlaqədar P.V.Şvan-Quriyskinin fikirləri [22] , kauçuk daşıyıcıları olan, yabanı halda yetişən bitkilərdən istifadə edilməsi məsələləri ilə əlaqədar A.Laktionovun mühakimələri [23], respublikada subtropik bitkiçiliyin inkişaf etdirilməsinin təsərrüfat-iqtisadi əhəmiyyəti məsələləri ilə əlaqədar Ə.S.Əmir-Şahın, H.Vəzirovun[24] mühakimələri, həmçinin respublikada kartof bitkisinin daha səmərəli üsullarla yetişdirilməsi ilə əlaqədar səslənən fikirlər təhlil olunaraq qiymətləndirilmişdir.

**7. XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisad elminin və iqtisadi fikrin inkişafına neqativ təsir edən amillər qiymətləndirilir**

Elmi araşdırmalarda "XX əsrin 20-30-cu illərində Azərbaycan elminin inkişafına və o, cümlədən iqtisad elminin və iqtisadi fikrin inkişafına neqativ təsir edən amillər" müəyyənləşdirilmişdir. Tədqiq edilən illərdə Azərbaycanda iqtisad elmi və iqtisadi dünyagörüşü də daxil olmaqla elmi fikir və dünya görüşün inkişafına təsir edən işğal faktorundan qaynaqlanan digər 3 əsas faktor nəzərdən keçirilmişdir. Bunlar 1) Azərbaycan ziyalısının və o, cümlədən ictimai elm sahələrinin, iqtisadçıların fiziki cəhətdən məhv edilməsi, 2) kütləvi surətdə azərbaycan ziyalısının məcburi olaraq respublikanı tərk etməyə məcbur olması, 3) respublikanın, o, cümlədən milli dəyərlərin inkişafına zidd olan ideyaların bütün müstəvilərdə ictimai şüurun müxtəlif formalarına təlqin edilməsi, ictimai təfəkkürün sovet ictimai-iqtisadi determinizminin təsiri altında olması göstərilə bilər.

---

[21] "Kommunist", 1931, №114

[22] Шванн Гурийский П.В. Пустыни АССР и их экономическое будущее (Альфа). Баку: изд. «Азгос.музея», Баку, 1928, с. 8-16

[23] «Бакинский рабочий», 1931, № 7, №90

[24] "Kommunist", 1936, №222, №226

20-ci illərin əvvəllərində birbaşa olaraq repressiyaya sinfi düşmən obrazı ilə təqdim edilən sosial qruplar, ictimai-siyasi xadimlər məruz qalırdısa, sonrakı illərdə sinfi düşmən axtarışı demək olar ki, bütün cəmiyyəti əhatə edirdi. 20-ci illərin ikinci yarısından etibarən respublikanın ali məktəblərinin müəllim və professor heyəti, elmi kadrlar da ciddi təzyiq altında idilər. Tədqiqatlar zamanı müəyyən edildi ki, 1927-ci ilin sonlarına doğru Azərbaycan Politexnik İnstitutunun partiya təşkilatında trotskiçilərə qarşı kompaniya qaldırıldı. Trotskiçillərə qarşı mübarizə Məhəmmədlinskilər, Barxaşovlar və b. qarşı mübarizə adı altında gedirdi[25].

Hətta həmin illərdə dərc edilmiş kommunist dövrü mətbuatında təqiblərlə əlaqədar faktlar hər nə qədər təkzib edilsə də gerçəkliyi gizlətmək mümkün olmurdu. Məsələn bizim diqqətimizi 1929-cu ildə fevralın 12-də «Бакинский рабочий» qəzetində dərc olunmuş “Ali məktəb yeni yolda” başlığı ilə dərc edilmiş məqalə cəlb edir. Məqalə Elmi işçilərin konfransında Baş Texniki Təhsil İdarəsinin (Главпрофобора) rəisi Ratqauzerin çıxışına həsr olunuşdur. Məruzədə dövlətin elm və təhsil siyasətinin mütərəqqi məzmun daşımasının faktlarla sübuta yetirilməsinə çalışılsa da, günbəgün savadlı insanların ölkəni və respublikanı tərk etməyə məcbur olması faktı da müəyyən formada etiraf olunurdu (düşünülmüş sayə adlandırılmasına baxmayaraq).

Repressiyaların növbəti güclü dalğası 30-cu illərdə başlamış və demək olar ki, bütün 30-cu illər ərzində davam etmişdi.

Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, 1934-cü ildən 1939-cu ilə qədər 27458 nəfər əksinqilabi və "antisovet " fəaliyyətinə görə cəzalandırılmışdır. Ən çox cəzaya məruz qalanlar "trotskiçi ", "əksinqilabçı millətçi ", "üsyançı " adı ilə həbs olunanlar idi. Ümumiyyətlə, repressiya tədbirləri Azərbaycanın 100 minə yaxın ziyalısına tətbiq edilmişdir.

Repressiya illərində Bakı Dövlət Universitetinə rəhbərlik edən Tağı Abbas oğlu Şahbazi (1926-1929-cu illər), Maqsud Məmməd oğlu Məmmədov (1929-1930-cu illər), Məmmədkazım Ələkbər oğlu

---

[25] “Əzizbəyov adına Azərbaycan Dövləti Neft İnstitutu Əxbarı” (yubiley buraxılışı), Azərbaycan Dövləti Neft İnstitutun Nəşri, 1930, №1, s. 25// (*Buleetin of Azerbaijan State Naptha İnstitute in the name of Azizbekoff” №1, (the yubellee part) , 1930, №1, s. 25*

Ələkbərov (1934-1935-ci illər), Balabəy Cabbar oğlu Həsənbəyov (1935-1937-ci illər) həbs edilərək güllələndilər. Ümumiyyətlə isə Bakı Dövlət Universitetinin 60-a qədər professor, elmi işçisi və müəllimi, 20-dək tələbəsi təqib və təzyiqlərə məruz qalmış, güllələnmişdi.

BDU-nun Şərqşünaslıq fakültəsinə rəhbərlik etmiş professorlar B.Çobanzadə və Q.Qubaydullin, Tarix fakültəsinin dekanı B.N.Tixomirov, dekan müavinləri dosent Baba Əsgərov və dosent H.Biləndərli, "Müstəmləkə və asılı ölkələr tarixi kafedrasının müdiri professor A.Bukşpan kimi mütəxəssislər də repressiya qurbanları sırasındadırlar[26] .

1937-ci ildə BDU-nun rektoru, professor B.Həsənbəyov həbs edildikdən sonra onun başçılıq etdiyi siyasi iqtisad kafedrasının əməkdaşları cəza kabusu ilə qarşı-qarşıya idilər. Müəllimlərdən professorlar Çiçikalov (o, 20-ci illərin II yarısında dialektik materializm kafedrasına rəhbərlik edib), Sofronoviç, dosent Əli Əhməd oğlu Məmmədbəyov, İsrafil Axundov və başqaları cəza maşınının qurbanına çevrildilər.

Araşdırmalar zamanı dövrü mətbuat materiallarından Azərbaycan Xalq Torpaq Komissarı müavini Datiyevin, professorlardan Kalugin və Lebedyevin kondratyevçilikdə ittiham olunaraq işdən azad edildikləri, prof. Lebdeyev və Darçinskinin məsuliyyətə cəlb edildikləri barədə məlumatlar əldə olunmuşdur[27] . Müşahidələr zamanı direktiv göstərişlərə uyğun gəlməyən istənilən iqtisadi fikrin səslənməsi ciddi təzyiq və cəzalarla müşayiət olunması faktları müəyyənləşdirilmişdir. Nümunə üçün qeyd etmək olar ki, professor Mixeyev noyabrın 22-də tələbələrlə seminar məşğələsi zamanı pambıq planının həddindən artıq yüksəldilməsi ilə əlaqədar öz fikirlərini bildirdi. Mixeyev öz çıxışında Azərbaycanda taxıl problemi həll edilmədən monokulturanın geniş yayılmasından əndişə duyduğunu ifadə etmişdi. Çıxışda həmçinin qeyd olunurdu ki, taxıl və nəqliyyat problemi həll edilmədən bütünlükdə respublikada kənd təsərrüfatını inkişaf etdirmək mümkün deyil, Salyan rayonunda pambıq taxılı necə sıxışdıra bilər, hətta bu ərazilər suvarılsa belə bu tədbirlərə ehtiyatla yanaşmaq lazımdır, çünki nəqliyyat

[26] Hacıyev S.T. Əziz B.O. İctimai fikrin inkişafı və milli oyanışda BDU-nun yeri // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, 2009, №3, s. 61-62

[27] "Kommunist", 1931, №66

əlaqələrinin pozulması şimaldan taxıl gətirilməsini çətinləşdirir. Azərbaycan şimaldan gələn taxıllardan hər hansı bir gözlənilməz səbəbdən məhrum ola bilər[28] .

Təzyiq və cəzalar həmçinin SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının, Azərbaycan Neft Elmi Tədqiqat İnstitutunun, Neft Sənayesində Təhlükəsizlik Texnikası Elmi Tədqiqat İnstitutunun və digər elmi tədqiqat müəssisələrin əməkdaşlarına tətbiq olunmuşdur.

Repressiyaya məruz qalmış iqtisadçı, nəzəriyyəçi Balabəy Cabbar oğlu Həsənbəyovun, iqtisadi tarix məsələlərinin də araşdırılması ilə məşğul olan Qazis Salihoviç Qubaydullin, Vəlili Məhəmmədhəsən (Baharlı), Firuzbəy Mehdi oğlu Orudbadski, İskəndər Cabbar oğlu Rzazadə və iqtisadi problemlərin araşdırılması ilə məşğul olan digər tədqiqatçıların repressiya olunması respublikada elmi və iqtisadi fikrə vurulan böyük zərbə kimi qiymətləndirilə bilər.

Dissertasiya işində respublikanın, o, cümlədən milli dəyərlərin inkişafına zidd olan ideyaların bütün müstəvilərdə ictimai şüurun müxtəlif formalarına təlqin edilməsi, ictimai təfəkkürün sovet iqtisadi determinizminin təsiri altında olması faktorunun təsiri qiymətləndirilərkən tarixi faktlar əsasında bədii, hüquqi, tarixi, coğrafi, iqtisadi düşüncəyə, bütünlükdə milli ictimai iqtisadi təfəkkürün inkişafına zidd olan ideyaların bütün müstəvilərdə təlqin olunması üsulları araşdırılmışdır.

Milli və özünəməxsus iqtisadi düşüncə tərzinin formalaşması qaynaqlarından biri kimi bədii-ictimai dünyagörüşü hesab edilə bilər. Qeyd etmək lazımdır ki, 20-30-cu illər Azərbaycan fikir tarixinin inkişafında spesifik bir mərhələsi hesab edilə bilər. Bu zaman milli düşüncə tərzi, beynəlmiləlçiliklə pərdələnən ekspansionist və kosmopolit dəyərlərin ideya qarşıdurması baş verirdi. Tədqiq edilən dövrdə marksizm-leninizmin sənət ekvivalenti kimi sosializm realizmi cərəyanı yarandı və bütünlükdə XX əsrin 80-ci illərinə kimi müəyyən inkişaf mərhələlərindən keçərək Azərbaycanda bədii və bütünlükdə ictimai təfəkkürə ciddi təsir göstərmişdir. Cərəyanda əmək fəaliyyəti, insani münasibətlərdən üstün tutulurdu. Bütün bunlar isə 20-30-cu illərdə ədəbi təfəkkürə yeridilərək ədəbiyyat və sənətdə öz əksini tapdı. Kobud fiziki əmək mədh olunur, etalonlaşdırılırdı. Əmək prosesində adamların real problemləri heç vaxt göstərilmir, əksinə insanlar qayğısız və gümrah

[28] “Dan yıldızı” 1930, №11-12, s.42-43; «Бакинский рабочий», №277, 1930

göstərilir, yorulmayan insanların dəmir yolu, körpü, su elektrik stansiyalarının tikintisində iştirakı, nəhəng sosialist obyektlərinin istifadəyə verilməsi mədh olunurdu. Real həyatda isə şəxsi mənafeyə fərdi təsərrüfatlara yer yox idi. İnsanlar özləri üçün deyil, cəmiyyət üçün toy bayram edərək çalışırdılar. Ağır zəhmətin müqabilində insanlar pul deyil, medal, keçici bayraq, diplom və fəxri fərmanla təltif olunurdular.

Dərc edilmiş əsərlərdə bərpa dövründən sonra kənd-təsərrüfatının sosialistcəsinə yenidən qurulması, kənddə xüsusi mülkiyyətin son elementlərinin ləğv edilməsi, sosialist şəhərinin formalaşması prosesi qələmə alınırdı[29] .

Bu zaman min illər ərzində formalaşan milli-mənəvi dəyərlər məhv edilirdi. Məsələn həmin illərdə dövrü mətbuatda və digər nəşrlərdə "Orucluq ticarət burjuaziyasının müdafiəsi üçün düşünülmüş" bir tədbir, kimi qiymətləndirilirdi, sosializm qurulan ölkədə dini bayramlara (qurban bayramı və s.) yer olmadığı bəyan edilirdi [30].

Ümumiyyətlə 20-ci illərin birinci yarısında ədəbi fikirdə dörd istiqamətin mövcudluğundan söhbət gedirdi. Bu istiqamətlər 1) mülkədar ədəbiyyatı, 2) futurizm ədəbiyyatı, 3) irtica dövründə yaranan ədəbiyyat, 4) son ədəbiyyat, proletar ədəbiyyat hesab olunurdu.

Dissertasiya işində tarixi təfəkkürün ciddi ideoloji təzyiqlər altında olması faktlarının müəyyənləşdirilməsinə də xüsusi diqqət yetirilmişdir.

Rəsmi dəyərləndirmələrdə çox əsirlik Azərbaycan tarixi yadellilərin zəbt və talanalar tarixi kimi təqdim olunaraq, Azərbaycan xalqının ancaq sovet hakimiyyəti dövründə kommunist partiyasının rəhbərliyi ilə öz torpaqlarının və sərvətlərinin əsil sahibi olduğu iddia edilirdi.

Tədqiqatlar zamanı rəsmi ideologiyanın kriteriyalaraına uyğun gəlməyən, tarixi məsələlərin şərhinə həsr olunmuş fikirlərin dövrü və elmi ədəbiyyatlarda tənqid edilməsi, alternativ tarixi mühakimə sahiblərinin ciddi təzyiqlərə məruz qalması faktları nəzərdən keçirilmişdir. Nümunə üçün qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın və bütünlükdə müsəlman şərqinin marksist dünya görüşündəki postulatlarla üst-üstə düşməyən özünəməxsus inkişaf yolunun olması gerçəkliyi ilə əlaqədar irəli sürülən fikirlər inzibati müdaxilə və ictimai qınaq üsullarından istifadə edilərək təkzib edildi.

---

[29] Tağıyev R. Azərbaycan jurnalı və Azərbaycan sovet ədəbiyyatının aktual vəzifələri (1923-1976-cı illər). Bakı: Elm, 1977, s. 78

[30] "Kommunist", 1930, № 40, №98

T.Berin, P.Juze, R.İsmayılov, R. Hüseynov və digər tarixçilərin fikirləri dövrü və elmi ədəbiyyatlarda sərt tənqid olunurdu.

Dissertasiya işində həmçinin rəsmi ideologiyanın postulatları əsasında fəlsəfi, coğrafi, hüquqi dünyagörüşü sahələrində də fikir plüralizmi təzahürlərinin təzyiqlərə məruz qalması faktları dəyərləndirilmişdir.

Dissertasiya işində ziyalıların təzyiq və repressiyalardan yayına bilməsi üçün gizli yollarla respublikanı tərk etməyə məcbur olması Azərbaycan ictimai-iqtisadi fikrinə neqativ təsir edən faktorlardan biri kimi nəzərdən keçirilmişdir.

**Tədqiqat zamanı əldə edilən elmi nəticə və təkliflər aşağıdakılardır:**

1. XX əsrin 20-30-cu illərində ictimai-iqtisadi ideyaların başlıca mənbəyi olan, siyasi, iqtisadi, institusional situasiya və makroiqtisadi gerçəkliklər birmənalı olaraq Azərbaycanın milli və sosial ekspansiyaya məruz qalmasını təkzibedilməz faktlarla sübut edir;

**2.** Lakin yuxarıda göstərilən situasiyanın respublikada iqtisadi fikrin inkişafına təsirini birmənalı olaraq qiymətləndirmək qeyri mümkündür. Bəsit bir məntiqlə, hər şey yaxşıdır və yaxud pisdir yanaşması ilə ictimai-iqtisadi təzahürlərin qiymətləndirilməsi hesab edirik ki, sırf obyektiv yanaşma baxımından düzgün olmaz. Dövrün ən böyük paradokslarından biri kimi qeyd olunmalıdır ki, milli respublikalarda və o, cümlədən Azərbaycanda da digər sosial qruplarla yanaşı ziyalı və alimlər də repressiyaya məruz qalmış, digər tərəfdən isə elmi biliklər populyarlaşdırılmış, resursların ictimailəşdirilməsinə cəhdlər edilmişdir ;

3. Dissertasiya işində obyektiv gerçəklik və dövrün paradoksları kontekstində XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisad elminin və iqtisadi fikrinin başlıca inkişaf xüsusiyyətləri və istiqamətləri müəyyənləşdirilmişdir. Təbiidir ki, tədqiq edilən dövrdə iqtisad elmi və iqtisadi fikrin inkişaf xüsusiyyətləri və istiqamətləri müəyyənləşdirərkən hansı meyarlardan çıxış edilməsinin əhəmiyyəti vardır və xüsusi təsnifatın aparılmasını tələb edir. İlk növbədə iqtisadiyyatın nəzəri və praktiki məsələləri ilə məşğul olan ideya sahiblərinin sosial statusu və milli mənşəyi baxımından istiqamətlər müəyyənləşdirilə bilərdi. Lakin hesab edirik ki, elmi biliklər, ideyalar ümumbəşəri məzmun və xarakter daşıdığından belə bir yanaşma lüzumsuzdur. Elmi fikir və ideyaların irəli sürülməsi zamanı istiqamətlərin müəyyənləşdirilməsinin kriteriyaları

aşağıdakılardır: həmin fikir və ideyalar obyektiv gerçəkliyin dərk olunması zamanı hansı metodologiyaya əsaslanır və təyinatı nədir, hansı məqsədlərə xidmət edir.

4. XX əsrin 20-30-cu illərində Azərbaycan sovet iqtisadi fikrində sırf metodoloji yanaşmalar baxımdan üç başlıca istiqamət 1) mexanist, 2) idealist, 3) dialektik materialist metodologiyasına əsaslanan yanaşmalar diqqəti cəlb edir.

-20-30-cu illərdə sovet ictimai-iqtisadi fikrində başlıca fəaliyyət istiqamətləri kimi 1) leninizm uğrunda mübarizə, 2) müsavat ideologiyası əleyhinə mübarizə, 3) əksinqilabi trotskizimin təsirlərinin ifşa olunması, 4) mexanizm və idealizmə qarşı mübarizə istiqamətləri kimi müəyyən edilmişdi;

5. Sırf təyinatı baxımından isə iqtisadi ideya və təkliflər nəzəri və praktiki məzmun daşıyıb xalq təsərrüfatının ayrı-ayrı sahələrinin problemlərinin həlli ilə əlaqədar irəli sürülmüşdür. 20-30-cu illərdə xalq təsərrüfatının müxtəlif sahələrinin iqtisadi problemləri ilə əlaqədar təhlili dəyərləndirmələr bu gündə öz aktuallığını saxlamaqdadır. Onlarla nümunə göstərmək olar ki, həmin layihələrdəki fikirlər sadəcə respublikanın iqtisadi inkişafına və maraqlarına xidmət etdiyi üçün, həmçinin müəyyən kapitalqoyuluşu tələb etdiyindən reallaşdırılmamışdır. Bütün bu təkliflər bir daha yenidən dəyərləndirilməli və müasir dövrün tələblərinə uyğun reallaşdırıla bilər;

6. İ.Rzazadə, T.Zolyataryov, E.Pankov, İ.Esmanın Azərbaycanın enerji təsərrüfatının tələb və ehtiyaclarının təmin olunması üçün hətta bərpa olunan enerji resurslarından da istifadə olunmaqla energetikanın inkişaf etdirilməsi ilə əlaqədar təklif və tövsiyələrdəki fikirlərin nəzərə alınması;

7. Müasir dövrdə Ərazi Sənaye Komplekslərinin inkişaf etdirilməsi, yeni klasterlərin yaradılması baxımından həmin dövrdə respublikanın sənayeləşdirilməsi il əlaqədar D.Bünyadzadə, H.B.Ağaverdiyev, H.Rəhmanov, S.Bronşteyn, Y.Krılovun dəyərləndirmələrindəki fikirlər hesab edirik ki, müasir dövrdə respublika hüdudlarında klaster yanaşmasının bir tərəfdən ideya qaynaqlarının müəyyənləşməsinə xidmət edə bilər, digər tərəfdən həmin ideyaların reallaşdırılması özünün praktiki əhəmiyyətini saxlamaqaddır ;

8. XX əsrin 20-30-cu illərində respublikanın təbii resursları, mineral ehtiyatları, bitki örtüyü və digər zənginlikləri ilə əlaqədar aparılmış məqsədyönlü araşdırmalarda irəli sürülən, lakin hələdə reallaşdırılmayan bir çox təkliflər bu gün müstəqillik illərində reallaşdırıla bilər və çox

böyük iqtisadi səmərə əldə edilə bilər. Bir çox yabanı bitkilərin əczaçılıqdan başlamış *(səhiyyə iqtisadiyyatı)* sənayenin müxtəlif sahələrində xam mal ehtiyatları kimi istifadə olunması imkanlarının müəyyənləşdirilməsi ilə əlaqədar araşdırmalar aparılmışdır. Kauçuk daşıyıcılarının respublikanın bitki örtüyü içərisində müəyyənləşdirilməsi və sənaye məqsədləri üçün istifadə edilməsi məsələləri ilə əlaqədar aparılan tədqiqatlar nümunə kimi göstərilə bilər.

Müasir dövrdə dünyanın bir çox ölkələrində alternativ resursların müəyyənləşdirilməsi istiqamətində elmi araşdırmalar aparılır. Məhz bu baxımdan hesab edirik ki, hələ ötən əsrin 20-30-cu illərində başlamış tədqiqatların yenidən davam etdirilməsi məqsədəuyğun olardı.

9. Aqrar münasibətlərin və problemlərin həlli ilə əlaqədar sürətlə və elliklə kollektivləşdirmə ideyasının əksinə olaraq alternativ ideyaların XX sərin 90-cı illərindən etibarən aktuallıq qazanması diqqətdən kənarda qala bilməz. Bu gün yenə Azərbaycan kəndi dilemma qarşısında qalmışdır. Kənddə aqrar islahatla əlaqədar təsərrüfatların xırdalanması və vəsait çatışmazlığı səbəbindən istehsalın təşkilində çoxsaylı problemlərin yaranması, yenidən iki başlıca təmayülləri gücləndirmişdir, bir tərəfdən kooperasiyanın hər hansı bir formasının seçilməsi, digər tərəfdən isə güclü və imkanlı təsərrüfatların üstün təsərrüfatçılıq forması kimi seçilməsinin məqsədyönlülüyü. Təbiidir ki, burada yenə də XX əsrin 20-30-cu illərin təcrübəsindən və cümlədən iqtisadi ədəbiyyatlarda səslənən fikirlərdən faydalanmaq olar.

10. Tədqiq edilən dövrdə bir çox sahələrin mütəxəssisləri Naftalan neftinin və respublikada mövcud olan digər müalicəvi xüsusiyyətləri olan qaynaqların öyrənilməsi ilə əlaqədar araşdırmalar apararaq, eyni zamanda həmin resurslardan istifadə olunmasının iqtisadi səmərəsinə də diqqət yetirmişlər. Hesab edirik ki, müasir dövrdə həmin təkliflər yenidən nəzərdən keçirilməli, göstərilən istiqamətlərdə araşdırmalar davam etdirilməlidir.

11. XX əsrin 20-30-cu illərində Azərbaycan elminin inkişafına və o, cümlədən iqtisad elminin və iqtisadi fikrin inkişafına neqativ təsir edən amillər qismində 1) Azərbaycan ziyalısının və o, cümlədən ictimai elm sahələrinin, iqtisadçıların fiziki cəhətdən məhv edilməsi, 2) kütləvi surətdə azərbaycan ziyalısının məcburi olaraq respublikanı tərk etməyə məcbur olması, 3) respublikanın, o, cümlədən milli dəyərlərin inkişafına zidd olan ideyaların bütün müstəvilərdə ictimai şüurun müxtəlif formalarına təlqin edilməsi, ictimai təfəkkürün sovet iqtisadi determinizminin təsiri altında olması göstərilə bilər.

**Dissertasiya işinin əsas nəticələri müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda iqtisadiyyatın yerli və regional idarəetməsinin təşkili məsələləri // Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları məqalələr və tezislər. Bakı: İqtisadiyyat İnstitutu , 2009 0,3 ç.v.

2. Səməndərov S.S. XX əsrin 20-ci illərində Azərbaycanda əməyin iqtisadiyyatı ilə əlaqədar mövcud gerçəkliklər və dəyərləndirmələr // Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri. Bakı: 2010, o,1 ç.v.

3. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində bazar və planlaşdırma məsələlərinin iqtisadi ədəbiyyatlarda əksinə dair // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat elmləri seriyası, 2010, № 2, 0,4 ç.v.

4. Səməndərov S.S. Azərbaycanda sovet Hakimiyyəti quruculuğunun ilk illərində (1920-1925) vergi münasibətlərinin təşəkkülü və formalaşması // Azərbaycanın vergi Xəbərləri 2011, №1, 0,5 ç.v.

5. Səməndərov S.S. Sənayeləşdirmə yoxsa innovasiya iqtisadiyyatı: XX əsrin 20-30-cu illərində sovet iqtisadi sisteminin özünəməxsus cəhətləri və Azərbaycan gerçəklikləri // İnnovasiyalı inkişafın Sosial-iqtisadi problemləri mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: 27-29 oktyabr, 2010-cu il, 0,1

6. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi məsələlərinin iqtisadi ədəbiyyatlarda əks olunmasına dair // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri», İqtisadiyyat elmləri seriyası, 2010, № 3 0,4 ç.v.

7. Səməndərov S.S. XX əsrin 20-ci illərin də Azərbaycanda neft sənayesinin iqtisadi məsələlərinin elmi ədəbiyyatlarda əks olunması // Azəbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitunun Elmi Əsərləri", 2010 №4, 0,4 ç.v

8. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində siyasi-iqtisadın predmeti ilə əlaqədar disskusiyalar və retrospektiv təhlil // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri», İqtisadiyyat elmləri seriyası, 2010, № 4 0,5 ç.v.

9. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisadi ədəbiyyatlarında heyvandarlığın inkişaf etdirilməsi məsələlərinin əks olunmasına dair // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri», İqtisadiyyat elmləri seriyası, 2011,№ 1, 0,4 ç.v.

10. Səməndərov S.S. XX əsrin 20-ci illərində Azərbaycanda ilk elmi tədqiqat mərkəzlərinin formalaşdırılması və iqtisadi araşdırmalar //Azəbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitunun Elmi Əsərləri», 2011 №2, 0,3 ç.v.

11. «XX əsrin 20-30-cu illərində xalq təsərrüfatının bəzi sahələrinin inkişaf etdirilməsi ilə əlaqədar innovativ təşəbbüslər: reallıqlar və dəyərləndirmələr», «Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı», Beynəlxalq Elmi-praktiki konfransın materialları, 31 mart 2011. Bakı: AMEA Elmi İnnovasiyalar Mərkəzi, 2011, 0,2 ç.v.

12. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan ictimai-iqtisadi fikrində kooperativləşdirmə ilə əlaqədar dəyərləndirmələr //Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində mövzusunda Beynəlxalq Elmi-Praktik konfransın materialları. Bakı: Şərq-Qərb, 2011,496 s., 0,3 ç.v.

13. Səməndərov S.S. Azərbaycanın sovetləşdirilməsinin ilk illərində N.Nərimanovun ictimai-siyasi hadisələr kontestində iqtisadi idarəetmə mexanizmlərinin təşkilində rolu və iqtisadi mühakimələri // Azərbaycanın vergi xəbərləri», 2011, №12, 0,7 ç.v.

14. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda ərzaq siyasətinə dair bəzi faktlarla əlaqədar dəyərləndirmələr // Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri» mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları və tezisləri. Bakı: Avropa, 2011, 377 s., 0,3 ç.v.

15. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində kooperasiya məsələlərinin Azərbaycan ictimai-siyasi və iqtisadi fikrində əksi // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Əsərləri. Bakı: 2011, III Buraxılış, 0,6 ç.v.

16. Səməndərov S.S. XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda daxil və xarici ticarət, gömrük işinin təşkili ilə əlaqədar dəyərləndirmələr // Azərbaycanın vergi jurnalı», 2012, №2, 0,9 ç.v.

17. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisadi ədəbiyyatlarında nəqliyyat infrastrukturu problemlərinin əks olunması // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012-ci il, I Buraxılış, 0,7 ç.v.

18. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda elmi-tədqiqat, təhsil, təlim və informasiya mərkəzlərinin təşəkkülü **(monoqrafiya).** Bakı: Avropa, 2012, 13,9 ç.v.

19. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində keçid dövrü nəzəriyyələri haqqında analitik dəyərləndirmələr // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri» (İqtisadiyyat seriyası), 2012, №1, 0,6 ç.v.

20. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisadi ədəbiyyatlarında rayonlaşdırma problemi // AMEA-nın

İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012-ci il, II Buraxılış, 0,7 ç.v.

21. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda vergi məsələlərinin ictimai-siyasi və iqtisadi fikirdə əks olunması // Azərbaycanın vergi jurnalı, 2012, №4, 0,8 ç.v.

22. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də mədəni maarif, arxiv, elmi informasiya işinin təşkilinin ictimai-iqtisadi təfəkkürün formalaşmasına təsiri // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri» (İqtisadiyyat), 2012, №2, 0,7 ç.v.

23. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan hüquqi fikrində iqtisadi məsələlərin əksinə dair // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012-ci il, III Buraxılış, 0,5 ç.v.

24. Səməndərov S.S. Azərbaycanda birjaların yaranması və fəaliyyət göstərməsinin tarixi-iqtisadi aspektləri // Azərbaycanın vergi jurnalı», 2012, №5, s.129-141, 0,8 ç.v.

25. Səməndərov S.S. Azərbaycanda sığorta işinin təşkili tarixindən» (XX əsrin 20-30-cu illəri) //Azərbaycanın vergi jurnalı», 2013, №1, 0,9

26. Самандаров С.С. Отражения некоторых теоретических вопросов в Азербайджанской экономической мысли в 20-30-гг. XX столетия // Экономика и предпринимательство. М. : 2013 г., №5, 0,5 п.л.

27. Самандаров С.С «Основные направления и предметы полемики Азербайджанской общественно экономической мысли в 20-30-ые гг. XX в. // Экономический рост республики Беларусь: Глобализация, инновационность, устойчивость. Материалы VI Международный научно-практической конференции. Минск: 2013, 0,1 п.л

28. Самандаров С.С Некоторые особенности формирования советской общественно –политической и экономической мировоззрении в Азербайджане 20-30-ые годы XX столетия (Институональный аспект вопроса // Экономика, Социология и право в современном мире: проблемы и поиски решений», статьи и тезисы докладов 16-й Международный научно-практической конференции. г.Пятигорск, 2013 г., 0,2 п.л.

29.Самандаров С.С. Основные направления в Азербайджанской научной и общественно-экономической мысли в 20-30-гг XX столетия // Экономика и предпринимательство. М.: 2013 г., №7, 0,6 п.л.

30. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində xalq təsərrüfatının bəzi sahələrinin inkişaf etdirilməsi ilə əlaqədar innovativ təşəbbüslərin iqtisadi ədəbiyyatlarda əks olunmasına dair. //AMEA-nın

İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2013-ci il, II Buraxılış, səh. 0,5 ç.v.

31. Самандаров С.С. Содержание и задачи планирования в контексте институциональных преобразований в Азербайджане в 20-30-ые годы XX века // Экономика и предпринимательство. М.: 2013 г № 8 (37) 2013, 0,4 п.л.

32. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda iqtisad elminin və iqtisadi fikrinin inkişafına neqativ təsir edən amillər // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2013-ci il, III Buraxılış, 0,8 ç.v.

33. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan mühacirlərinin ictimai iqtisadi fikirləri // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri" (İqtisadiyyat), 2013, №1, 0,6 ç.v.

34. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisadi fikrində Asiya istehsal üsulu ilə əlaqədar dəyərləndirmələr // Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş "Azərbaycan iqtisadiyyatının aktual problemləri" mövzusunda elmi-praktiki konfransın meteriallları, Bakı: Avropa, 2013, 0,3 ç.v.

35. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də iqtisadi tarixi və iqtisadi fikir tarixi məsələləri // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri" (İqtisadiyyat), 2013, №2, 0,5

36. Samandarov S.S. Evaluation of the Economical literature of Azerbaijan on Devolopment of non traditional Agricultural Branches in the 20s-30s of the century // Middle East Journal of Scientific Research, Volume 18 number (9), 2013, p. 1308-1312;http://www.idosi.org/mejsr/mejsr18(9)13/12.pdf, 0,6 p.l.

37. Samandarov S.S. The 20-30s of the 20th Century as a Specific Stage in the History of Development of the Political Economy Science in Azerbaijan // European Researcher, 2014, Vol.(67), № 1-2, 0,7 p.l.

38. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində Azərbaycanda qlobal və regional ictimai-iqtisadi hadisələr kontekstində dəyərləndirmələr" ***(monoqrafiya).*** Bakı: 2014, 16 ç.v.

39. Səməndərov S.S. XX əsrin 20-30-cu illərində ictimai-iqtisadi ədəbiyyatlarda iqtisad elmlərinin təsnifatı məsələsi // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2014, №2, 0,5 ç.v.

40. Səməndərov S.S. Azərbaycan iqtisadi ədəbiyyatlarında qiymətli kağızların bəzi motivləri ilə əlaqədar dəyərləndirmələr (XX əsrin 20-ci illəri) // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyinə həsr olunmuş "Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi praktiki konfransın materialları (məruzə və çıxışlar) 5-6 may, 2014-cü il, Bakı 2014, 0,3 ç.v.

41. Самандаров С.С. Постановка вопросов индустриализации в Азербайджанской экономической литературе в 20-30-ые годы XX столетия // Экономика и предпринимательство»,№11 (ч.3) (52-3),0, 4 п.л.

42. Səməndərov S.S. Azərbaycan iqtisadi fikrində klasterləşmə ideyasının genezisindən // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri" (İqtisadiyyat), 2014, №1, 0,5 ç.v.

43. Samandarov S.S. Evaluation on topical issues of the history of economic ideas in Azerbaijan during the second and third decade of the 20th century. International Journal of Academic Research, Part B, Social Asciences and Humanities, november, 2014, vol.6.N.6, 0,4 p.l.

44. Səməndərov S.S. "XX əsrin 20-30-cu illərində Azərbaycan iqtisadi ədəbiyyatlarında əməyin təşkili məsələləri"//"Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2015, №1 , 0,5 ç.v

45. Samandarov S.S., Assesment of Technical and Economic Literatures of Azerbaijan on the Issue of Energy Production from Marine Resources (the 20s and 30s of the 20$^{th}$ Century)/ World Journal Fish and Marine Sciences, 2015 www.idosi.org/wjfms/wjfms7(2)15/5.

46. Samandarov S.S. Annotation of expert assessments of issues related to the utilization of energy resources in Azerbaijan 1920-1930// International Sientific Journal Theoretical and Applied Science, 2015 year, Issue 05, volume 25, pp. 189-196

47. Samandarov S.S. Assessments Regarding Development Issues in the Azerbaijani Steel Industry in the Last 20 years of the 20th century// Khazar Journal of Humanities and Social Sciences Volume 19, Number 1, 2016, pp. 50-56

**САМАНДАРОВ СЕЙФАДДИН САБИР оглы**

**«Основные направления развития Азербайджанской экономической науки и экономической мысли в 20-30-ые годы XX века»**

## РЕЗЮМЕ

В течении XX века наше общество дважды переживало переходный период, трансформационный процесс от одной системы к другой. В первом переходном периоде (20-30-ые годы), происходили радикально трансформационные процессы от капиталистической к социалистической системе, а во втором, начиная с 90-х годов процесс становления рыночной экономики и рыночных отношений в обществе. Экономико-исторический опыт в этом контексте приобретает очень весомое значения при решений экономических проблем в обществе.

В Работе исследуются источники формирования и основные теоретические и практические направления Азербайджанской экономической мысли и экономической науки в 20-30-е гг XX в.

В диссертации выявлены также факторы негативно влияющие на развитие экономической науки и экономической мысли в указанный период истории Азербайджанской Республики, где рассматриваются такие факторы как национальная и социальная экспансия Азербайджана, репрессия научных и научно педагогических кадров в республике, тотальное подавление научного мышления и внедрение чуждых и абсурдных идей в общественное сознание, вынужденная миграция талантливых людей из республики. Результаты научного исследования представляют определенный интерес при изучении истории экономической мысли и экономической науки Азербайджана.

**SAMANDAROV SEYFADDIN SABİR**

# "MAİN TRENDS İN DEVELOPMENT OF THE AZERBAUCAN ECONOMİC SCİENCE AND ECONOMİC THOUGHT İN 20-30 –ES AT THE XX CENTRİUES"

## SUMMARY

During the twentieth century, our society has twice survived the transition period, the transformation process from one system to another. The first transition period 20-30th years, undergoing radical transformation processes from the capitalist system to socialist system and in the second, starting from the 90s of a market economy and market relations in society. Economic and historical experience in this context present a very importance in solving some of the economic problems in society. During scientific works investigated the sources of formation and the basic theoretical and practical aspects of the Azerbaijan economic thought and economics in the 20-30-ies. Identified as negatively influencing factors on the development of economics and economic thought in this period of history of the Azerbaijan Republic which considers factors such as national and social expansion of Azerbaijan, repression of scientific and pedagogical staff in the country and total suppression of scientific thinking and the introduction of alien and absurd ideas into the public consciousness, the forced migration of talented people from the country. The results of scientific research is of particular interest in the study of the history of economic thought and economics history of Azerbaijan.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**МИНСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**САМАНДАРОВ СЕЙФАДДИН САБИР оглы**

# «ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИЧЕСКОЙ НАУКИ И ЭКОНОМИЧЕСКОЙ МЫСЛИ В 20-30-ые ГОДЫ XX ВЕКА»

Специальность: 5307.01- Экономическая теория

## АВТОРЕФЕРАТ

Диссертация на соискание ученой степени доктора экономических наук

**БАКУ-2016**